www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 dekabr 2014-cü il Cümə № 303 (6012) Qiymət 40 qəpik

**Xəbər**

## Bakıda qadın gəlinini və nəvəsini öldürdü

yazısı səh.15-də

**Gündəm**

### Bu gün kəlbəcərli girovların "məhkəməsi" başa çatır



Ermənistan Rusiyanın "girovları azad et" çağırışına məhəl qoymaya bilərmi?

yazısı səh.2-də

### Taleh Bağırov Qobustana köçürüləcək

yazısı səh.3-də

### Sabah iqtidar-müxalifət dialoqu olacaq

Müxalifət hansı məsələləri müzakirəyə çıxaracağını açıqladı

yazısı səh.6-da

### Amerika Konqresi Leyla Yunusu nüfuzlu mükafata namizəd irəli sürüb

yazısı səh.3-də

### "Atlant"dakı silahlı məmur oğlu kimdir?

İstirahət mərkəzindəki "razborka"nın şok görüntüləri yayıldı

yazısı səh.12-də

### Müsavatın Divan üzvünə töhmət verildi

yazısı səh.6-da

### Xədicə İsmayılı həbsdən çıxarmaq niyə mümkün olmadı?

yazısı səh.4-də

### Milyon, milyon, milyon...sərvəti olan azərbaycanlılar

yazısı səh.13-də

### Siyavuş Novruzov müəllimlərin ixtisarını təklif etdi

yazısı səh.8-də

### Azərbaycanda narkotik asılılığı olan məktəblilər var

yazısı səh.12-də

### MTN-in əməliyyatında 30 nəfər həbs olundu

yazısı səh.2-də

## Ölkədə kütləvi ixtisarlar başlayır

# NEFTİN DÜŞMƏSİ AZƏRBAYCANI "VURDU" - BÖHRAN QAPIDA

"Qara qızıl"ın qiymətinin ucuzlaşması ölkəmizi ciddi təhlükələrə soxa bilər; BP rəhbəri və YAP-çı deputat ixtisarlar olacağının anonsunu verdi; işdən çıxarılmalarla yanaşı, bir sıra sosial proqramların və iri infrastruktur layihələrinin dayandırılması da gözlənilir




yazısı səh.8-də

## Gəncədə icra başçısı və müavini döyüldü

Elmar Vəliyevin "sağ əli"nin satdığı torpaqlarda "evyıxma əməliyyatı" qanla nəticələndi; kəlbəcərli köçkünlər mülklərini başlarına uçurmaq istəyənləri əzişdirdilər

yazısı səh.15-də



*Mahmud Bilgin:*

### "Bütöv Azərbaycanın yaranması Qarabağın qurtuluşudur"

yazısı səh.7-də



### Əli Həsənov keçiriləcək dialoqdan danışdı

yazısı səh.3-də



*Arif Hacılı:*

### ""Yeni Müsavat"ın uğurunu uğurumuz, uğursuzluğunu uğursuzluğumuz sayırıq"

yazısı səh.5-də

# 12 dekabr 2014

Kəmaləddin Rəhimov



# Prezident Serbiya parlamentinin sədrini qəbul edib

**Prezident İlham Əliyev Serbiya parlamentinin sədri Maya Qoykoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Lent.az-ın məlumatına görə, Azərbaycanla Serbiya arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan dövlət başçısı siyasi əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib və bunun iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaratdığını bildirib.**

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Serbiyanın mövqeyini yüksək qiymətləndirən prezident İ. Əliyev Azərbaycanın Kosovo ilə əlaqədar Serbiyanın mövqeyini dəstəklədiyini bir daha vurğulayıb.

M. Qoykoviç isə ölkəsinin iqtisadi əməkdaşlığın genişləndirilməsində və Azərbaycanın Serbiya iqtisadiyyatına investisiya qoymasında maraqlı olduğunu bildirib. Parlament sədri ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq etdiyini deyib.

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini deyən M. Qoykoviç Kosovo ilə bağlı Azərbaycanın mövqeyinə görə minnətdarlığını bildirib. Parlament sədri ölkəsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldılmasını, eləcə də dahi bəstəkar Üzeyir Hacıbəylinin Serbiyada, Bakıda isə serb xalqının böyük oğlu Nikola Teslanın abidələrinin açılışını ölkələrimiz arasında dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirib. O, Serbiyada məscid və kilsənin əsaslı şəkildə yenidən qurulmasına və bu yaxınlarda daşqınlar zamanı ilk ölkələrdən biri olaraq Azərbaycanın göstərdiyi yardıma görə serb xalqı və şəxsən öz adından prezident İlham Əliyevə minnətdarlıq edib.

Görüşdə ölkələrimiz arasında nəqliyyat, investisiya qoyuluşu, energetika və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.




# MTN-in əməliyyatında 30 nəfər həbs olundu

**Milli Təhlükəsizlik Nazirliyi narkotiklərlə mübarizə çərçivəsində növbəti əməliyyat-axtarış tədbirləri həyata keçirib. Axar.az-a qeyri-rəsmi mənbədən verilən məlumata görə, dekabrın 10-da MTN-in paytaxtın Yasamal rayonu ərazisində, Sovetski yaşayış massivində keçirdiyi əməliyyat zamanı 30 nəfər həbs edilib. Həbs edilənlər narkotik maddələri əldə etmə, daşıma və satmaqda şübhəli bilinərək saxlanılıblar. Məlumatda bildirilir ki, qanunazidd əməllərin digər iştirakçılarının müəyyən edilməsi üçün zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

MTN-in ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Arif Babayev axar.az-a açıqlamasında bu barədə məlumatının olmadığını bildirib.

Xatırladaq ki, dekabrın 9-da MTN tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 19 kiloqramdan artıq narkotik vasitənin İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə, gömrük nəzarətindən kənar keçirilərək Azərbaycan Respublikasının ərazisinə qanunsuz daşınmasının qarşısı alınıb, bu hüquqazidd əməllərin törədilməsinə görə 11 nəfər şübhəli şəxs qismində tutulub.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Bu gün kəlbəcərli girovların "məhkəməsi" başa çatır

## Ermənistan Rusiyanın "girovları azad et" çağırışına məhəl qoymaya bilərmi?

**Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində ermənilərin kəlbəcərli girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevə qarşı oktyabrın 27-də qurduqları "məhkəmə" şousu sona çatmaq üzrədir. Bu gün "məhkəmə"də "vəkillər"in və "prokuror"un çıxışı olacaq. Sonuncu "məhkəmə prosesi"ndə ermənilərin kəlbəcərli girovların öldürdüyü iddia etdikləri Sumbat Çakanyanın qohumları girovların onlara verilməsini tələb ediblər. Ermənistan mətbuatının yaydığı xəbərə görə, Sumbat Çakanyanın anası bununla bağlı KİV-lərə açıqlama verib: "Bilirəm ki, dekabrın 12-də vəkillərin və prokurorların çıxışı olacaq. İndidən aydındır ki, Əsgərov Sumbatı öldürüb, amma bunu etiraf etmir. Mən oğluma 7 dəfə atəş açan insanın mühakimə olunmasını istəmirəm. Qoy, onu mənə versinlər!"**



İşğalçı Ermənistanın və separatçı rejimin isə öz ağaları olan Rusiyanın xarici işlər naziri səviyyəsində girovları azad etmək çağırışından sonra Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı hansı addımı atacaqları maraq doğurur. Bu mövzuda danışan **politoloq Qabil Hüseynli** hesab edir ki, əgər Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistana girovları azad etmək çağırışında səmimidirsə və Moskva bu məsələnin üzərində ciddi dayanacaqsa, onun forpostu olan Ermənistanın girovları azad etməkdən başqa yolu qalmayacaq: "Rusiyanın xarici işlər nazirinin kəlbəcərli girovlarla bağlı belə bir mövqe bildirməsi sevindiricidir və bu, humanizm kimi qiymətləndirilməlidir. Çox yaxşı olar və ümid edək ki, Rusiya bir açıqlama ilə kifayətlənməyəcək, girovların azad edilməsi üçün gərəkən digər addımları da atacaq. Lavrovun məhz indiki vaxtda belə konkret və düzgün mövqe ifadə etməsinin bir sıra səbəbləri ola bilər. Görünür, Rusiya da məsələni ciddi şəkildə araşdırıb və tam əmin olub ki, məsələdə kriminal elementlər yoxdur, ermənilərin girov götürdüyü şəxslər heç bir cinayətə, qanun pozuntusuna yol verilməyiblər. Dağlıq Qarabağdakı qondarma rejimin və Ermənistanın erməni zabitinin və bir qadının, həmçinin bir yeniyetmənin öldürülməsi ilə bağlı iddiaları tamamilə boşa çıxdı". **Q.Hüseynlinin fikrincə, ermənilərin qurduğu oyun artıq iflasa uğrayıb. Politoloq düşünür ki, S. Lavrovun girovların azad olunmasının vacibliyini bəyan etməsi ilə ermənilərin oyununun baş tutmadığını söyləmək olar:** "Məlum olub ki, öldürülən erməni qadın erməni zabitin məşuqəsi imiş və onların arasında olan ziddiyyətlər hər ikisinin ölümünə gətirib çıxarıb. Yəni Dilqəm Əsgərovun, Şahbaz Quliyevin, həmçinin mərhum Həsən Həsənovun onların ölümü ilə heç bir əlaqəsi yoxdur. Eyni zamanda erməni yeniyetmənin də ölümündə adıçəkilən azərbaycanlıların heç bir rolunun olmadığı sübuta yetirilib. Azərbaycanlılara qarşı irəli sürülən ittihamların çoxu Ermənistanın öz mətbuatı tərəfindən təkzib edilir. Rusiya belə bir vəziyyətdə Dilqəm Əsgərovla Şahbaz Quliyevin girov saxlanmasının beynəlxalq konvensiyalara zidd olduğunu görür. Qondarma məhkəmənin sona çatması ərəfəsində Rusiya xarici işlər nazirinin "girovları azad edin" çağırışı çox ciddi hadisədir".

**Politoloq bildirir ki, Rusiyadan girovların azad olunması çağırışının səslənməsində Azərbaycan hakimiyyətinin, əsasən də prezident İlham Əliyevin kəlbəcərli girovların azad edilməsi üçün şəxsən apardığı iş də ciddi rol oynayıb:** "Bəllidir ki, Dilqəm Əsgərovla Şahbaz Quliyevin məsələsi şəxsən İlham Əliyevin nəzarətində idi. Rusiyanın rəhbərliyi ilə aparılan danışıqlar artıq öz bəhrəsini verməkdədir. Lavrovun çıxışı həm də məhz bununla əlaqədardır. Prosesin gedişi, baş verənlər kəlbəcərli girovların azad ediləcəyinə şübhə yeri qoymur. Mən hətta hesab edirəm ki, Kəlbəcərdə qətlə yetirilən mülki şəxs Həsən Həsənova görə Ermənistan cavab verməlidir".

❑ **Etibar SEYİDAĞA**



# Qadın metroda öldü

**Bakı Metropoliteninin "İnşaatçılar" stansiyasında ölüm hadisəsi olub. Lent.az-ın əldə etdiyi məlumata görə, dünən 4 saylı təcili tibbi yardım briqadasına stansiyada 55-60 yaşlı qadının halının kəskin pisləşməsi ilə bağlı müraciət daxil olub. Dərhal hadisə yerinə təcili tibbi yardım briqadası gəlib. İlkin müayinədən sonra qadının vəfat etdiyi məlum olub.**

Hadisə yerinə polis və prokurorluq əməkdaşları gəlib. Məlum olub ki, dünyasını dəyişən qadın Bakı Metropoliteninin əməkdaşıdır.

Qadının ölüm səbəbi hələlik tam dəqiqləşməyib. Faktla bağlı araşdırmalar aparılır.



# QHT Şurası 2015-ci ilin I maliyyə müsabiqəsini elan etdi

**Dekabrın 11-də QHT-lərə Dövlət Dəstəyi Şurasının iclası keçirilib. "Media forum" saytının məlumatına görə, iclasda 2015-ci ilin I maliyyə müsabiqəsi müzakirə olunub. Qeyd edilib ki, yeniliklərə əsasən, 7 müxtəlif istiqamət üzrə bir sıra yeni mövzu müəyyən edilib, QHT-lərin müsabiqədə iştirakı ilə bağlı verilən tələblər yüngülləşdirilib, texniki şərtlər asanlaşdırılıb.**

Təqdim olunan layihələrin müddəti 3 aydan 12 ayadək, qrantın məbləği isə 3 min manatdan 30 min manatadək ola bilər.

Müsabiqə üzrə ərizələrin qəbulu dekabrın 11-də başlayıb. Qaliblər 2015-ci il martın 2-dən sonra elan olunacaq.

# Bakıda partlayış həyəcanı

**Bakıda döyüş sursatı aşkarlanıb. Virtualaz.org Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinə istinadən bildirilr ki, nazirliyin "112" qaynar telefon xəttinə Xətai rayonunda döyüş sursatının aşkarlanması barədə məlumat daxil olub.**

Dərhal nazirliyin müvafiq qurumları hadisə yerinə cəlb olunub və istifadəyə yararsız vəziyyətdə olan 1 ədəd "F-1" markalı əl qumbarası mütəxəssislər tərəfindən zərərsizləşdirilib.

Xilasedicilər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birlikdə əraziyə əlavə baxış keçiriblər.

Ərazidə başqa şübhəli əşya aşkar edilməyib.



# Zakir Həsənov Türkiyənin müdafiə nazirinin müavini ilə görüşdü

**Dekabrın 11-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə milli müdafiə nazirinin müavini Hasan Yardımcının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib**

Qonaqları salamlayan müdafiə naziri Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini və hər iki tərəf üçün faydalı olduğunu qeyd edib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan müdafiə naziri işğal edilmiş torpaqlarımızın azad edilməsinin bölgə üçün vacibliyini vurğulayıb.

H.Yardımcı Azərbaycana səfərdən məmnun qaldığını bildirərək, qarşılıqlı münasibətlərin möhkəmlənməsində bu cür səfərlərin rolu və əhəmiyyətindən danışıb.

Sonra regional və ikitərəfli əməkdaşlıqla bağlı digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alper Coşkun da iştirak edib.(qafqazinfo)

# Vaqif Səmədoğlu İsraildən qayıtdı

**Xalq şairi Vaqif Səmədoğlu İsraildən Bakıya qayıdıb. Bu barədə APA-ya açıqlamasında şairin həyat yoldaşı Nüşabə Vəkilova məlumat verib: "Dünən gəlmişik. Vaqif indi özünü orta hiss edir. Əsas odur, əvvəlki vəziyyətdən çıxıb. Bakıda müalicələri davam edəcək, həkim nəzarətində olacaq".**

N. Vəkilova əlavə edib ki, İsrailə yenidən qayıdacaqları hələlik məlum deyil: "Bu, Vaqifin səhhətindən asılıdır".

Qeyd edək ki, V. Səmədoğlu xərçəng xəstəliyindən əziyyət çəkir. O, noyabrın 26-da xüsusi təyyarə ilə İsrailə aparılıb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Dekabrın 11-də "Türkiyə və Azərbaycan mediası: tarixi müqayisələr və ənənəvi mediadan onlayn mediaya keçid" mövzusunda konfrans keçirilib.**

# "Azərbaycan və Türkiyə qarşılıqlı şəkildə dünyaya verdiklərinin qarşılığını istəyir"

## İki ölkənin mediası ilə bağlı konfrans keçirilib

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

Konfrans Azərbaycan Mətbuat Şurası, Azərbaycan Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu, Türkiyənin Azərbaycandakı səfirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı nümayəndəliyi, TRT-nin və Anadolu Agentliyinin ölkəmizdəki nümayəndəliklərinin birgə təşkilatçılığı ilə baş tutub.

"Biz öz ərazilərimizin bütövlüyü uğrunda mübarizə aparırıq, heç kimin torpağında gözümüz yoxdur. Amma eyni zamanda tələb edirik ki, bizim də ərazi bütövlüyümüzə hörmətlə yanaşsınlar". "AzərTAc" xəbər verir ki, bu sözləri Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov konfransdakı çıxışında deyib.

Türkiyə və Azərbaycan jurnalistlərinin qarşılıqlı təcrübə mübadiləsi apardıqlarını, ixtisasartırma kurslarında iştirak etdiklərini bildirən Əli Həsənov iki ölkənin media qurumlarının bütün məsələlərdə həm müvəffəqiyyətləri, həm problemləri bölüşmək gücündə olduğunu vurğulayıb.

**Türkiyənin dünyada özünün hərbi, ideoloji, siyasi, iqtisadi gücü ilə mühüm bir yer tutan dövlət olduğunu və Azərbaycanın da bu gün Türkiyənin gücünə güc qatacaq bir səviyyədə inkişaf etdiyini diqqətə çatdıran Əli Həsənov deyib:** "Bu gün Azərbaycan dünyada Türkiyənin gücünə güc qataraq vahid maraqlar uğrunda bir birlik formalaşdırıb. Bu birlik heç kimin maraqlarını təhdid etmir, heç bir xalqa, dövlətə, dinə və etnik struktura qarşı yönəlməyib. Biz öz varlığımızı qoruyuruq və istəyirik ki, dünyada da bizim dinimizə, dilimizə, mədəniyyətimizə, maddi-mənəvi dəyərlərimizə hörmətlə yanaşsınlar. Biz öz ərazilərimizin bütövlüyü uğrunda mübarizə aparırıq, heç kimin torpağında gözümüz yoxdur. Amma eyni zamanda tələb edirik ki, bizim də ərazi bütövlüyümüzə hörmətlə yanaşsınlar. Dünya birliyi bizə nə qədər lazımdırsa, biz də dünya birliyinə o qədər lazımıq. Azərbaycan və Türkiyə qarşılıqlı şəkildə dünyaya verdiklərinin qarşılığını istəyir". Əli Həsənov **deyib ki, "Türkiyə və Azərbaycan mediası texnologiyaların hansı səviyyədə dəyişməsindən asılı olmayaraq ölkələrimizin ortaq maraqlardan çıxış etməlidir:** "Mən hər şeydən əvvəl Türkiyə mediasında Azərbaycanla bağlı məsələlərə olan yanaşmalara münasibət bildirmək istəyirəm. Çox təəssüf ki, bəzi hallarda Türkiyə mediasının Azərbaycana münasibətində laqeydlik müşahidə edirik".

**APA-nın xəbərinə görə, bunu "APA Holding"in rəhbəri Vüsalə Mahirqızı Bakıda keçirilən konfransda çıxışında deyib.**

**Onun sözlərinə görə, Türkiyənin TRT kanalı və rəsmi Anadolu Agentliyi Azərbaycanla bağlı məsələlərdə çox həssas yanaşma nümayiş etdirirlər:** "Lakin çox təəssüf ki, Türkiyənin özəl media quruluşlarında Azərbaycan, xüsusilə Dağlıq Qarabağ məsələsi ilə bağlı yanlışlıqlar və laqeydlik müşahidə olunur. Türkiyə üçün önəmli olan məsələlər Azərbaycan mediasında həmişə diqqət mərkəzində olub. Bu, Azərbaycanın təkcə rəsmi mediasına deyil, özəl media quruluşlarına da aiddir. Mən arzu edirəm ki, Türkiyənin bütün media quruluşlarında da biz eyni həssaslığa rast gələk".

Tədbirə TRT-nin baş direktoru Şenol Göka, Türkiyə Mətbuat və İnformasiya İdarəsinin rəhbəri Əli Günəş, Ankara Qazi Universitetinin jurnalistika fakültəsinin dekanı Zakir Afşar, haber7.com saytının rəhbəri İbrahim Ərdoğan və digər şəxslər qatılıblar.

Konfransda iştirakçılar adından Türkiyə və Azərbaycan jurnalistlərinə müraciət ünvanlanıb.

❑ **Sevinc TELMANQIZI**

# Əli Həsənov dialoq məsələsindən danışdı

## "Hakimiyyət bütün ictimai-siyasi təşkilatlarla dialoqa və əməkdaşlığa hazırdır"



Əli Həsənov

**"Dekabrın 13-də Azərbaycanda fəaliyyət göstərən bir qrup partiya sədri ilə görüş keçirəcəyik". Bunu APA-ya açıqlamasında Azərbaycan Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib.**

Ə. Həsənov bildirib ki, bir müddət əvvəl bəzi siyasi partiyalar hakimiyyətlə dialoq təşəbbüsü ilə çıxış etmişdilər: "Biz dəfələrlə bəyan etmişik ki, Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən bütün ictimai-siyasi təşkilatlarla dialoqa və əməkdaşlığa həmişə hazırdır. Bu sahədə kifayət qədər təcrübə də toplanıb. Ayrı-ayrı vaxtlarda ictimai-siyasi qurumların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə keçirilmiş görüşlərdə Azərbaycanın ictimai-siyasi həyatında iştirak etməyin siyasi və hüquqi normaları, seçkilər, sağlam siyasi rəqabət, insan hüquq və azadlıqlarının təmin edilməsi və digər məsələlərə dair səmərəli fikir mübadiləsi aparılıb və irəli sürülən dəyərli rəy və təkliflər nəzərə alınıb".

Ə.Həsənov qeyd edib ki, ADP, ALDP, KXCP, BAXCP, AXP, Böyük Azərbaycan, Ümid, Azadlıq, Aydınlar və digər partiyaların rəhbərlərinin iştirakı ilə keçiriləcək görüşdə müxalifət partiyaları ilə münasibətlər, onlarla əməkdaşlığın perspektivləri və digər məsələlər müzakirə olunacaq.

# Taleh Bağırov Qobustana köçürüləcək

**Həbsdə yatan ilahiyyatçı Taleh Bağırov Qobustan qapalı həbsxanasına köçürüləcək. Qaradağ Rayon Məhkəməsi 12 saylı cəzaçəkmə müəssisəsi rəisinin təqdimatı ilə belə qərar çıxarıb.**

Vəkil Zaman Səmədov "Media forum"a bildirib ki, məhkəmə qərarı dekabrın 20-də qüvvəyə minir, ondan sonra məhbus Qobustana etap ediləcək.

Məhbusun qardaşı Elşən Bağırov deyib ki, bəlkə də Qobustan daha əlverişli variantdır: "Çünki 12 saylı cəzaçəkmə müəssisəsində Talehə telefonla danışmaq imkanı vermirlər, yanına gedənləri görüşə buraxmırlar. Qobustanda heç olmasa 3 aydan bir görüş mümkün olar".

Taleh Bağırov 2013-cü il martın 31-də tutulub. Sabunçu Rayon Məhkəməsi onu qanunsuz narkotik vasitə saxlamada təqsirli bilərək 2 il müddətinə azadlıqdan məhrum edib. Bu il avqustun 13-də Taleh Bağırovdan mobil telefon tapıldığına görə məhkəmə cəza müddətinə 4 ay da əlavə edib.

Taleh Bağırov 2015-ci ilin avqust ayında həbsdən çıxmalıdır.

# Leyla Yunusun kamerasına narkoman yerləşdirilib

## Amerika Konqresi hüquq müdafiəçisini nüfuzlu mükafata namizəd irəli sürüb; müsavatçı fəalla isə Qırmızı Xaçın nümayəndələri görüşüblər



Leyla Yunus

**Vəkil Elçin Qəmbərov dekabrın 10-da həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusla görüşüb. Elçin Qəmbərov musavat.com-a açıqlamasında hüquq müdafiəçisinin kamerasına narkoman yerləşdirildiyini bildirib: "Dünən Leyla xanımla görüşdüm. Onun kamerasına narkoman qız yerləşdiriblər. Nə gecəsi var, nə də gündüzü. Qız narkotik qəbul edə bilmədiyinə görə tez-tez halı dəyişir. Bu zaman qapıları çırpır. Bu vəziyyət Leyla xanıma əlavə çətinliklər yaradır. Bir növ psixoloji təzyiqdir. Ən ağır işgəncələrdən biri yuxusuzluqdur. Yaşlı qadını yuxusuz vəziyyətə salırlar".**

Vəkil Almaniya səfirliyinin Leyla Yunusa verdiyi dərmanların son günlərdə ona çatdırılmadığını da qeyd etdi: "İndiyə qədər Almaniya səfirliyinin Leyla xanıma verdiyi dərmanlar ona çatdırılırdı. Səfirlik şəkərlə bağlı Leyla Yunusa qayğı göstərirdi. Amma son günlər bundan da məhrum edilib. Səbəb aydın deyil. Leyla xanım həkimdən dərmanları tələb edəndə açıq şəkildə deyirlər ki, siz bizimlə əməkdaşlıqdan imtina edirsiz. Həkimlə hansı əməkdaşlıq ola bilər? Bunu anlamaq çətindir. Xəstə adamın dərmanları verilməlidir. Çox acınacaqlı durumdur. Bununla belə, dünən şad xəbər eşitdik. ABŞ səfirliyindən bizə dedilər ki, Leyla Yunus cəsarətə görə Amerika Konqresi tərəfindən mükafata namizəddir. Bu çox ciddi bir hadisədir".

**Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu isə atasının səhhətinin yaxşılaşdığını qeyd etdi:** "Atamla telefonla danışdıq. Ölkədə gedən proseslərlə bağlı maraqlandı. Xədicə İsmayılın həbsindən narahat olduğunu söylədi. Özünü gümrah hiss edir".

**Ürək ağrılarından əziyyət çəkən müsavatçı fəal Sirac Kərimli ilə təcridxanada Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri görüşüblər. Bu barədə müsavatçı fəalın atası Raqif Kərimli məlumat verdi:** "Sirac telefon danışığı zamanı Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinin onunla görüşdüklərini bildirdi. Xəstəxanaya yerləşdirilməsi ilə bağlı rəhbərliyə müraciət edəcəklərini Siraca deyiblər. Fərəclə bağlı isə hər şey qaydasındadır".

"Ayna-Zerkalo" qəzetinin həbsdəki əməkdaşı Rauf Mirqədirovla bağlı apelyasiya şikayəti verilib. Vəkil Elmar Süleymanov dedi ki, yaxın günlərdə şikayətə baxılacaq.

Hüquq müdafiəçisi Rəsul Cəfərovun ev dustaqlığına buraxılması ilə bağlı verdiyi vəsatət rədd edilib. Onun nümayəndəsi Günay İsmayılova qərardan apelyasiya şikayəti veriləcəyini bildirdi.

❑ **Cavanşir ABBASLI**

# Xədicə İsmayılı həbsdən çıxarmaq niyə mümkün olmadı?

## Jurnalistə xaricdən dəstək var, onu tutduran şəxs isə yeni anonslar verir ; **Tural Mustafayev:** "Birdən-birə hər şeyi açıb danışıb sizləri şoka salmaq istəmirəm"

**Dekabrın 11-də Bakı Apelyasiya Məhkəməsinin hakimi Abid Abdinovun sədrliyi ilə jurnalist Xədicə İsmayılın birinci instansiya məhkəməsinin qərarından şikayətinə baxıldı. Məhkəməyə jurnalistlər, X.İsmayılın yaxınları, xarici səfirlik nümayəndələri buraxılmadı. Məhkəmə binasının qarşısında prosesin bitməsini gözləyən yaxınlarına son məlumatı jurnalistin vəkilləri verdi. Öncə zaldan çıxan vəkil Elton Quliyev bildirdi ki, məhkəmə şikayəti təmin etmədi.**



**Dünəndən X.İsmayılın müdafiəsinə vəkil Yalçın İmanov və Fariz Namazlı da qoşulub. Y.İmanov bildirdi ki, məhkəmənin bu qərarı hansı əsaslarla qəbul etməsi onlara məlum deyil:** "Qərar elan olunanda heç bir əsas göstərilmədi. Sadəcə, apelyasiya şikayətinin təmin olunmadığı bildirildi. Güman edirəm ki, formal əsaslar olacaq. Xədicə İsmayıl 2 əsasla həbs olunub - istintaqın gedişinə maneçilik törətmək və proses iştirakçılarına qanunsuz təsir göstərmək ehtimalları ilə. Burda da müdafiəçilər olaraq məhkəmənin diqqətinə çatdırdıq ki, bu ehtimalları sübut edəcək hər hansı bir dəlil varsa, məhkəməyə təqdim olunsun və araşdırılsın".

**Y.İmanov prosesdə X.İsmayılın özünün də iştirak etdiyini dedi. Onun sözlərinə görə, jurnalist xanım həbsinin qanunsuz olduğunu və bunun gözlənilən olduğunu qeyd edib:** "Mən azad insanam, çöldə də azad idim, həbsdə də azadam. Həbs olunmağım heç nəyi dəyişmir».

Dekabrın 5-də Səbayel Rayon Məhkəməsi Xədicə İsmayıl barəsində 2 aylıq həbs qərarı çıxarıb. Jurnalist Cinayət Məcəlləsinin 125-ci - özünüöldürmə həddinə çatdırma maddəsi üzrə təqsirləndirilir. Jurnalist özü, beynəlxalq və yerli təşkilatlar onun peşə fəaliyyətinə görə həbsə atıldığını bildirirlər.

***

"Biz Azərbaycan jurnalisti Xədicə İsmayılın həbsindən olduqca narahatıq. Azərbaycanda vətəndaş cəmiyyətinə və jurnalistlərə basqılardan dərin təşviş keçiririk". «Amerikanın Səsi»ndə bildirilir ki, bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Jen Psaki bəyan edib. "Azərbaycan hökumətinin insan haqları sahəsində öz üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi bizi artan şəkildə narahat edir".

Jen Psaki rəsmi Bakını vətəndaşların universal hüquqlarına hörmət etməyə və onları öz baxışlarını sərbəst şəkildə ifadə etməyə imkan verməyə çağırıb. "Onlar gələcək sabitliyi və firavanlığı açıq cəmiyyətə şərait yaratmaqla təmin edə bilərlər". Jen Psaki əlavə edib ki, ABŞ rəsmiləri Azərbaycan rəsmilərinə öz narazılıqlarını çatdırırlar.

**Böyük Britaniyanın Bakıdakı səfirliyində Beynəlxalq İnsan Haqları Günü qeyd olunub. Tədbirdəki çıxışında səfir İrfan Siddiq son günlər ölkədə baş verən həbslərə də toxunub, deyib ki, istənilən dövlətin gücü onun müxtəlif fikirləri dinləmək və bu problemlərlə məşğul olmaq, birgə müzakirə və həll etməkdən ibarətdir:**

«İnsan hüquqları günündə Azərbaycan hökuməti və fikir formalaşdıran şəxslərə müraciətim o olardı ki, fərqli fikirlərə dözümlü olsunlar və biz birgə qarşılıqlı anlaşma şəraitində müzakirələr apara bilərik».

**İnsan hüquqları günündə Böyük Britaniyanın Avropa məsələləri üzrə naziri David Lidington da öz bloqunda Azadlıq Radiosunun əməkdaşı Xədicə İsmayılın həbsinə toxunub:**

«Ötən ay Azərbaycana getdim. Bu ölkədə ifadə və media azadlığına təhdidlər qalır. Elə ötən cümə günü daha bir jurnalist saxlanıb və barəsində həbs-qətimkan tədbiri seçilib. Xədicə İsmayılın işi jurnalistlərin sistematik hədəfə alınmasının davamıdır. Bu, tez-tez həbs cəzaları ilə bitir. Ancaq Azərbaycan müstəqil media azadlığını pozan ölkələr sırasında tək də deyil». David Lidington daha sonra media azadlığının pozulduğu digər ölkələrdən danışır.

Bu arada X.İsmayıl barədə şikayət verib, onun həbsinə səbəb olan Tural Mustafayev "cəbhə"sində sakitlik deyil. O, "Yeni Müsavat"da dərc edilən "Xədicə İsmayıl işində son və şok xəbərlər" başlıqlı yazını paylaşaraq öz münasibətini açıqlayıb.

**Həmin məqalədə T.Mustafayevin bir il öncə özünü asaraq intihar edən homoseksual gənc İsa Şahmarlı ilə eyni evdə yaşaması məlumatı, sonuncunun gündəliyində T.Mustafayevlə bağlı məqamların olması barədə ehtimallar yer almışdı. Yazıda T.Mustafayevin də iddiaya münasibəti yer alıb. Amma o, profilində buna ayrıca münasibət bildirib:** "Bu yazıda bir məqama toxunmaq istəyirəm. Mən anlamıram ki, İsa Şahmarlı ilə eyni evdə qalanda Xədicənin və onun ətrafında olanların münasibəti mənə qarşı normal idi. Nə oldu bunlar indi ortaya atılıb? Təxminən bir-iki ay bundan qabaq mənə Əfqan Muxtarlı zəng açaraq adımın İsa Şahmarlının şəxsi gündəliyində hallandığını bildirmişdir. Mən isə açıqlamamda heç bir məlumatım olmadığını bildirdim. 9 mart hadisələri yetərincə hamının yadında idi. Aynurun da, Rövşənənin də və digər şəxslərin də. Hansı ki, bu gün ortada quyruq bulayırlar. Bir çox şeylərə aydınlıq gətirmək istərdim. Amma hələ gözləmə mövqeyindəyəm. Birdən-birə hər şeyi açıb danışıb sizləri şoka salmaq istəmirəm. 5-6 min "demokrat" var, hamınız şoka düşsəniz ortada quyruğu kim bulayacaq?"





**O, daha sonra vaxtilə yaxın çevrəsində olduğunu iddia etdiyi jurnalist Cavid Abdullayevə də öz profili vasitəsilə müraciət edib:** "Cavid Abdullayev, bəlkə etiraf edəsən ki, "O gün olsun LGBT bayrağını Qarabağda dalğalandıraq. Cıdır düzündə Gey Parad keçirək" ilk sənin statusun olub? Təzyiqlər nəticəsində bunu sən siləndən sonra, mən paylaşdım? Onda «Meydan TV»də işləyirdim. Likelardan da görsənir ki, hətta bəyənmisən də. Bir qaranlıq məqamlara açıqlama verəsən bəlkə?"

**Bu arada X.İsmayılın həmkarı, "Azadlıq" qəzetinin köşə yazarı Elnur Astanbəyli də X.İsmayılın həbsi məsələsinə toxunub. "Yeni Müsavat"a açıqlamasında E.Astanbəyli deyib ki, X.İsmayılın həbsində gözlənilməz heç nə yoxdur. Onun özü də, çoxlarımız da bu həbsi gözləyirdik:** "Gözlənilməz olan bir şey varsa, o da həbsin bu qədər gecikməsidir. Onun hansı ittihamla, maddə ilə həbs edilməsi də önəmli deyil. Xədicə xanımın məhz hakimiyyətin tabu elan etdiyi mövzularda araşdırmalarına görə qəzəbə gəldiyi şübhəsizdir. Açığı, həbsə əsas kimi göstərilən motivlə dərindən maraqlanmıram. Çünki həm əsas motiv bəllidir, həm də axı bu ittiham, maddə faktiki olaraq Azərbaycanın hüquq təcrübəsində işləmir. İndi onun bir tənqidçi jurnalistə, - həm də əgər o xanımdırsa! - belə asanlıqla tətbiq edilməsi bu qərarın yalnız və yalnız siyasi intiqam duyğusu ilə verildiyini göstərir. Azərbaycanda kütləvi susdurulma dövrü başlayıb. Hakimiyyət "Hamı üzərində qələbə!" şüarı ilə hərəkət edir, meydanı tənqidçi səslərdən tamamilə təmizləməkdə israr edir. Məncə, total susdurulma prosesi bu və ya digər formada heç kimdən yan ötməyəcək. Bir sözlə, elə bir vəziyyət yaranıb ki, Xədicə xanımın və digər məhbus dostlarımızı müdafiə etməli olanların özləri də tamamilə müdafiəsizdir".

**"Hərə oturub öz növbəsini gözləyir" deyən müsahibimizin sözlərinə görə, son bir il, ilyarımda baş verən həbslər xüsusilə bir məsələdə çox faydalıdır:** "Bu uzun illər Qərb, Avropa dairələrinə onların Azərbaycanın demokratik qüvvələrini heç vaxt köməksiz qoymayacaqları barədə gülməli inamın tamamilə sarsılmasıdır. Bəli, bu aparılan kütləvi həbslərin xeyri onda oldu ki, ölkəni demokratikləşdirmək istəyən insanların artıq çox böyük hissəsi başa düşür ki, özümüzdən başqa heç kimimiz yoxdur, bu repressiya maşınının qarşısında təkbaşınayıq, ona görə də demokratik qüvvələr öz məqsədlərində səmimidirlərsə, kürəkləri bir-birinə daha sıx söykəməlidirlər. Bu çətin, ağır günləri ancaq öz iradəmizlə, birliyimizlə arxada qoya bilərik".

**Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi Azər Qasımov isə APA-ya müsahibəsində ABŞ Dövlət Departamentinin və Avropa İttifaqının sözçüləri, Avropa Şurası və AŞPA rəhbərlərinin Xədicə İsmayılla ilə bağlı bəyanatına münasibət bildirib. A.Qasımov deyib ki, bəzi beynəlxalq təşkilatların nümayəndələrinin və ABŞ Dövlət Departamentinin bu bəyanat və çıxışlarını Azərbaycana qarşı aparılan qərəzli, heç bir fakta və reallığa əsaslanmayan, açıq-aydın ikili standartlara söykənən bir kampaniyanın davamı kimi qiymətləndirir:** "İqtisadi böhran yaşayan Avropada insan haqlarının tapdalanması, irqi ayrı-seçkilik, faşizm meyllərinin artması, multikulturalizmə qarşı hücumların gücləndiyi bir dövrdə Avropa strukturlarının nümayəndələri beynəlxalq ictimaiyyətin əsas diqqətini öz problemlərindən yayındırmağa çalışırlar. ABŞ Dövlət Departamenti nümayəndəsi Cen Psakinin çıxışına gəldikdə isə onun Xədicə İsmayılova ilə bağlı verilən suallara cavablarına diqqəti yönəltmək istəyirəm. O, on gün ərzində verdiyi iki bəyanatda demək olar ki, bir söz belə dəyişilmədən, yenə də heç bir reallığa əsaslanmayan şablon ifadələr işlətməklə, bir daha öz qeyri-peşəkarlığını nümayiş etdirib. Mən bir daha ABŞ Dövlət Departamentini diqqəti öz ölkəsində insan haqları və azadlıqları, ümumiyyətlə, demokratik prinsiplərin açıq-aydın və kobud şəkildə pozulması hallarına yönəltməyə çağırıram. İrqi zəmində qarşıdurma, Ferqyuson hadisələri ilə bağlı öz haqlarını müdafiə etmək üçün etiraz aksiyasına çıxmış dinc nümayişçilərə qarşı sanki hərbi əməliyyatlar keçirilməsinin, günün günorta çağı heç bir müqavimət göstərməyən insanın polislər tərəfindən boğulub öldürülməsi, hətta uşaq və yeniyetmələrin polislər tərəfindən qətlə yetirilməsi kimi dəhşətli halların biz bu yaxınlarda şahidi olduq.

Ötən dəfə bu məsələlərlə bağlı sualınıza cavab verərkən Amerika Birləşmiş Ştatlarında söz və fikir azadlığı sahəsində vəziyyətin də acınacaqlı olduğunu bildirmişdim. Bu ölkədə kütləvi informasiya vasitələri nümayəndələrinə qarşı təqiblər geniş vüsət alır, jurnalistlər peşə fəaliyyəti ilə məşğul olduqları zaman həbs olunur, hüquq-mühafizə orqanları tərəfindən kütləvi informasiya vasitələri əməkdaşlarının telefon danışıqları və internet yazışmaları tam nəzarət altında saxlanılır.

Bütün bunların fonunda beynəlxalq ictimaiyyət Amerika Birləşmiş Ştatları Senatında təqdim olunmuş sənəddə dünyanı şoka salan dəhşətli faktlardan xəbərdar oldu. Məruzədən göründüyü kimi, ABŞ Xüsusi Xidmət Orqanları tərəfindən işgəncələrin tətbiq olunması uzun illər adi hala çevrilibmiş. ABŞ Dövlət Departamenti öz ölkəsində demokratiyanın və insan haqlarının tapdalanması faktlarını görməməzliyə vuraraq mütəmadi olaraq bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda baş verən hər hansı kiçik bir hadisəni süni şəkildə qabardaraq beynəlxalq ictimaiyyətə qərəzli, yalan informasiyalar təqdim etməklə məşğuldur.

Bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan müstəqillik əldə etməsindən keçən qısa bir dövrdə demokratiyanın və fundamental insan haqlarının təmin edilməsi sahəsində böyük nailiyyətlər əldə edib və Azərbaycan hökuməti bu istiqamətində fəaliyyətini bundan sonra da uğurla davam etdirəcəkdir".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014

**Müsavat Partiyasının başqanı Arif Hacılı, başqan müavini Nüşabə Sadıqlı, Divan üzvü Vəfa Cümşüdlü, Divan üzvü və təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı, şöbə müdiri Kərimxan Zeynalov dekabrın 11-də "Yeni Müsavat" qəzetinin redaksiyasına gəldilər.**



**"Yeni Müsavat"ın yazarı və müsavat.com saytının baş redaktoru Xalid Kazımlı** ölkədə çoxlu sayda qəzet və informasiya saytının olduğunu bildirdi və dedi ki, onların hamısı hər şeyi yazanda biz gündəmdə olan hansısa prosesdən yazmayanda geri qalarıq. Qəzetdə və saytda hər kəsin mövqeyinin işıqlandırılması bu baxımdan vacib sayılmalıdır.

# Qəzetdə firqə görüşü - Müsavat rəhbərliyi "Yeni Müsavat"ın redaksiyasında

## Arif Hacılı: ""Yeni Müsavat"ın uğurunu uğurumuz, uğursuzluğunu uğursuzluğumuz sayırıq"





Müsavat rəhbərliyinin gəlişində məqsəd "Yeni Müsavat" qəzetində işləyən partiya üzvləri ilə görüşüb, partiya daxilində gedən proseslər, partiya ilə qəzetin münasibətləri barədə müzakirə aparmaq idi. Baş redaktor Rauf Arifoğlunun kabinetində gerçəkləşən görüş ilk dəqiqələrdən isti atmosferdə keçdi. Rauf Arifoğlu məlumat verdi ki, belə bir görüşün keçirilməsi barədə Arif Hacılı ilə bir qədər öncə ikilikdə keçirdikləri görüşdə razılaşıblar.

R.Arifoğlu qəzet və partiya münasibətlərindən danışdı, bir sıra məqamlarla bağlı fikirlərini bölüşdü.

**Müsavat başqanı Arif Hacılı** ölkədə yaranmış siyasi durumdan, partiyadaxili məsələlərdən və siyasi partiyalar arasında münasibətlərdən geniş danışdı. O qeyd etdi ki, Müsavat Partiyasında fəaliyyət göstərmək imkanları olan hər bir adama bacarığına, vaxtına, həvəsinə görə şərait yaratmaq qərarındadır. Eyni zamanda mətbuat orqanları ilə, siyasi təşkilatlarla mümkün qədər müttəfiqlik və əməkdaşlıq münasibətləri qurmaqda maraqlıdır: "Mən heç vaxt heç bir mətbuat orqanı ilə münasibətlərin gərginliyində maraqlı olmamışam. "Yeni Müsavat" qəzeti isə 25 il ərzində Azərbaycanda siyasi prosesdə iştirak edən təsisatdır. Vaxt var idi "Müsavat" sözünü deməyin özü populyar deyildi. Hətta cəmiyyət içində də uzun zaman Müsavat haqqında elə bir təbliğat aparılmışdı ki, Müsavat faşist, dağıdıcı, kasıbları əzən, varlıların təşkilatı kimi qəbul olunurdu. O dövrdən "Yeni Müsavat" Müsavat Partiyasının, müsavatçılığın təbliğatını aparıb. Yəni bunların üstündən xətmi çəkmək olar? Bu qədər uzun yol keçib, bu qədər çətinliklərdən çıxmış bir mətbuat orqanıdır. "Yeni Müsavat" qəzetinin siyasi xətti aydındır. Azərbaycan müxalifətinin bütün yükünü üzərinə götürmədiyini iddia eləyən bir qəzetdir. Məhz bu siyasətin həm də nəticəsidir ki, hər bir adam "Yeni Müsavat" qəzetini oxuyur. "Yeni Müsavat"ı müxalifətçi də, iqtidar nümayəndəsi də, siyasətlə maraqlanan hər bir kəsim oxuyur. Düz başa düşmüşəmsə, qəzetin məqsədi də, xətti də odur ki, informasiya məkanının bütün spektrini əhatə edən bir qəzet olsun. Bizə də "Yeni Müsavat"dan yaxın olan hər hansı bir mətbuat orqanı yoxdur. Ona görə də "Yeni Müsavat"a dəyən zərbə həm də Müsavat Partiyasına dəyən zərbədir. "Yeni Müsavat"ın uğurunu uğurumuz, uğursuzluğunu uğursuzluğumuz sayırıq. Mənim Müsavat başqanı olaraq sizə dediyim söz bundan ibarətdir. Sizdən də partiyanın daha da inkişafı üçün dəstək umuram... Müsavat Partiyasında tərəf yoxdur, Müsavatda tərəf söhbəti sentyabrın 27-də bitib. Müsavatda fraksiya yaratmaq mümkün deyil, olmayacaq".

A.Hacılı "Yeni Müsavat"dakı müsavatçıların fikirlərini də dinlədi.

**Müsavat başqanının müavini Nüşabə Sadıqlı** "Yeni Müsavat"ı dəstəklədiklərini və qəzetdəki müsavatçılardan gözləntilərini dilə gətirdi.

**Müsavat Divanının üzvü Vəfa Cümşüdlü** də qəzetə dəstəyini ifadə etdi və müsavatçılardan umacaqlarını qeyd etdi.

Digər görüş iştirakçılarının da çıxışı ilə dialoq şəraitində keçən toplantı davam etdi.

İki saata yaxın davam edən görüşün sonunda Rauf Arifoğlu gəldikləri üçün Müsavat rəhbərliyinə təşəkkür etdi və müzakirələrin səmərəli olduğunu bildirdi.

❑ **Etibar SEYİDAĞA**

# "Hayqırtı bəy"



**Elşad MƏMMƏDLİ**
elshad1978@mail.ru

## Yaxud bir statusla sınıq-salxaq olan Əli Kərimli

**AXCP və Əli Kərimli cəbhəsində nisbi sakitlik hökm sürür. İki gün öncəyə qədər "Azadlıq" qəzetinin hər sayında "Yeni Müsavat"a və onun baş redaktoruna 6-7 yazı həsr olunurdu. Ümumi həcmi hesablayanda, haqqımızda yazılanlar qəzetin 60 faizi edirdi. Lakin birdən-birə səngimə baş verdi. Əli Kərimli qələmi yerə qoydu. Maraqlıdır, niyə? Axı o, geniş "razqon" götürmüşdü, niyə qəfildən tormoz verdi?**

AXCP sədrinin yaxın ətrafından başqa bir KİV-lərə, oradan da bizə sızan məlumata görə, bunun qəribə bir səbəbi var. O da Rauf Arifoğlunun facebookda yazmış olduğu aşağıdakı statusudur. 9 dekabrda "Yeni Müsavat"ın təsisçisi və baş redaktoru özünün facebook səhifəsində Əli Kərimlini nəzərdə tutan belə bir status paylaşmışdı: "Birilərinə iş açmışıq da. Feysdə layklarımızı sayır))) Həm də təkcə bu yox... Gecə yatmazdan öncə, sabah qalxan kimi musavat.com-u "obnavit" eləyir. Sonra başının dəstəsiylə bütün gününü , yaradıcılığını bizə sərf edir. Yazdıqlarımızdan, gün ərzindəki xəbər siyasətimizdən qeydlər götürür. Axşamüstü başlayır Akif Azadoğlu imzası ilə həmin qeydləri yazıya tökməyə. Sonra onları qəzetinə yollayır. Arada feysdəki "zombi"lərə konkret tapşırıqlar verir... Yenə mənimlə bağlı....Bütün potensialını mənə və qəzetimə işlətdiyini özü fərq etməz - amma mən son həftələrdə yüksələn İP sayından bilirəm. Xalq "döyüşü" seyr etməyi sevir...Əslində onu bu cür "valantyor" kimi özümə çalışdırmaq da çox xoşdur. Adamın həyatının, yaradıcılığının, özünüifadəsinin mənasına çevrilmişik. Düşmənçiliklərdən faydalanma texnoloqu kimi səmimi deyirəm, bu adam bəlkə də axmaqdı, ləyaqətsizdi; lakin mənə çox lazımdı. Ən kritik məqamları onun sayəsində, onu özümə çalışdıraraq aşmışam. Proses davam edir... Davam edəcək..."

Əli Kərimlinin və onun AXCP adlanan kiçilmiş, partiya funksiyasını itirmiş dəstəsinin son 1 aydakı fəaliyyətini bu cür çılpaq, qısa və lakonik ifşa edən, gözlər önündə aydın mənzərə yaradan, dəqiq desək, rəsmini çəkən yazı ola bilməzdi. Adamlar gerçəkdən də yuxudan qalxandan, ta yatana qədər, hətta bəziləri tapşırıqla səhərə qədər yatmayıb bütün həyatlarını bizimlə "mübarizəyə" həsr etmişdilər. Özlərini də elə qapdırmışdılar ki, bəlkə də fərqində belə deyildilər. Lakin öncə Həsən Kərimovun evində keçirilən Rəyasət Heyəti iclasında qurumun bəzi üzvləri "...bizim başqa işimiz yoxdurmu" - deyə, sual ediblər. Daha sonra isə Rauf Arifoğlunun bu statusu "zombibaşı"nı da ayıldıb, onun gerçəkdən nə ilə məşğul olduğunu özünü də əyan edib. Və bir siyasi texnoloqun əlində necə ucuz oyuncaq olduğunu da fərq edib...

Odur ki, dərhal, elə həmin gün Əli Kərimli müridlərinə tapşırıq verib: "Rauf Arifoglu mövzusunu minimuma endirin, mən deməsəm, heç nə yazmayın..."

Adamın mahiyyəti, siyasi bacarığı, "uzaqgörənliyi" budur. Son olaylarda da bir daha isbat oldu ki, bir qəzet nə zaman istəsə onu "barmağının ucunda" oynadır. Belələrinə Türkiyə mətbuatında "Haykırtı bəy" deyirlər. Tam Əli Kərimlinin mahiyyətini ifadə edən termindir.

Bu olaylarda Sərdar Cəlaloğlundan "siyasətin primadonnası" adını qazandı. Bizdən də ona "Hayqırtı bəy" adı hədiyyə olsun. Sağlıqla işlətsin.

Cənab "Hayqırtı bəy", zəhmətdən keçib, bu yazıya da mirzələrinə tezisləri özün verməklə, cavab yazdır...

# SMMM-dən "Yeni Müsavat"ın redaksiyasına yubiley ziyarəti

## Qurumun üzvləri qəzetimizi 25 illik yubileyi və 6000-ci sayı münasibətilə təbrik etdi

### Hacı Mehdi Şamil: ""Yeni Müsavat" mətbuatımızın canlı tarixidir"

**"Yeni Müsavat"ın 25 illik yubileyi və 6000-ci sayının çıxması münasibətilə ölkəmizin tanınmış simaları və təşkilatları tərəfindən qəzetə təbriklər gəlməkdə davam edir.**



Dünən "Siyasi Məhbusların Monitorinq Mərkəzi" "Yeni Müsavat"ın redaksiyasını ziyarət edərək, kollektivi və rəhbərliyi təbrik ediblər.

Mərkəzin üzvü, keçmiş siyasi məhbus Hacı Mehdi Şamil bildirib ki, "Yeni Müsavat" qəzeti Azərbaycan mətbuatının canlı tarixidir: "Qəzetin rəhbəri Rauf qardaşımızı təbrik etdik. Onunla hərəkatda bir yerdə olmuşuq. "Yeni Müsavat"ın necə yaranması gözlərim qarşısında olub. Bu qəzetin siyasi məhbusların üzərində böyük rolu olub. Özüm də məhbəs həyatı yaşamışam. "Yeni Müsavat"ın bütün məhbuslara ayırdığı diqqəti görmüşəm. Özümün və bütün siyasi məhbusların adından "Yeni Müsavat"ın rəhbərliyini və kollektivini təbrik edirik. Çəkdikləri əziyyətlərə görə öz minnətdarlığımızı bildiririk".

**Hacı Mehdi Şamil Müsavat Partiyasının siyasi məhbuslarla bağlı 14 dekabrda keçirəcəyi mitinqlə əlaqədar da fikirlərini bölüşüb:** "Qəzetiniz vasitəsilə bütün insanları 14 dekabr mitinqində iştirak etməyə çağırıram. Çünki hakimiyyət günahsız insanları həbsə atdırıb. Onların yanında olmaq borcumuzdur. Bizimlə həmfikir olan islamçıları iştiraka dəvət edirəm. Mitinq Əlbeyn gününə düşür. Zalımlara qarşı mübarizə günlərindən biri sayılır".

**Mərkəzin üzvü son günlərdə baş verən Batum hadisələrinə də toxunub:** "Hazırda Müsavat və AXCP arasında gedən intriqa xoşagələn deyil. Birlik lazımdır. Bütün bunlar neçə illərdən bəri yığılan aqressiyanın nəticəsidir. Bu baxımdan istərdik ki, müxalif partiyalarda estafet gənclərə verilsin. Son günlərdə baş verən Batum hadisələri ilə bağlı yaşananlar bizi məyus etdi. Enerjimizi belə şeylərə həsr etsək, əsas hədəf kənarda qalacaq".

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**



# Yeni kütləvi etiraz aksiyası - intihar cəhdi

Xalid KAZIMLI

**Yaşları 19-27 arasında olan 6 fəhlənin binanın damına çıxaraq intihara cəhd etmək istəməsi faktı gerçəkdən tükürpədici idi.**

Dördü iki qardaşlardan ibarət olan fəhlələrin bu addımı atmaqda məqsədləri nə şou çıxarmaq idi, nə ucuz şöhrət qazanmaq, nə də intihar etmək.

Bu, etirazdır. Gənc insanlar üzləşdikləri haqsızlığa bu cür etiraz edirlər - qanlarını qaşığa qoyaraq, nə dərəcədə boğaza yığıldıqlarını həyatdan imtina etməyə hazırlıqları ilə göstərərək.

Heç kim deməsin ki, onlar bu üsulla sadəcə aidiyyatı şəxsləri hədələyirlər, əslində özlərini atmaz, intihar etməzdilər.

Xeyr, onlar sözü bir yerə qoyub damın başına çıxıblarsa, demək, əl-ələ tutuşub aşağı da atıla bilərdilər.

Bu, etirazın ölkəmiz üçün yeni növüdür. Haqsızlığa məruz qalan, son əlacı kəsilən, axırıncı ümidi ölən insanların gücləri özlərinə çatır.

Onlar gedib kiminsə qabağını kəsmirlər, kiminsə boğazına bıçaq dirəmirlər, dava salmır, döyüb-döyülmürlər, şiddətlə müşayiət olunan aksiya (haranısa dağıtmaq, yandırmaq) keçirmirlər, sadəcə, hündür bir yerə çıxıb özlərini öldürəcəklərini bəyan edirlər.

Bu, yeganə ən təhlükəsiz üsuldur - sonunda ya ölüm var, ya həyat, ya sözləri dinləniləcək, ya da artıq onlar heç nə eşitməyəcəklər.

Bu yolu seçənlər bilirlər ki, bu aksiyaya görə onları tuta bilməzlər (hərçənd bir tutqu faktı var artıq), döyməzlər (intihara cəhd edənin döyülməsi faktı da var), necə olsa da, şikayətlərinə baxarlar (bu da var).

Canlarına qıymaq hədəsi ilə çıxış edən şəxslərin bu hərəkətini qınamaq mümkün deyil. Adamları qul kimi işlədiblər - sığortasız, müqaviləsiz, heç nəsiz. İndi də pullarını vermirlər. Belə zülm olarmı? Hansı zəmanədir? Quldarlıq dövrüdürmü?

Xəbərdə bildirilirdi ki, aşağı düşürülən şəxslər tikinti şirkətlərindən birində fəhlə kimi çalışdıqlarını, ancaq çalışdıqları tikinti şirkətinin adını bilmədiklərini deyiblər. Savadsız fəhlələr bəzi incəliklərə varmaya bilərlər, ancaq onlar tikinti şirkətinin adını bilməsələr də işlədikləri tikinti meydançasını tanımamış olmazlar. Haqq-ədaləti bərpa etmək istəyən dairələr bunu asanlıqla tapa bilərlər.

Son aylarda intihara cəhd hallarının artması zülmdən bezar olanların aksiyasıdır. Bəzən deyirlər ki, mətbuat bu haqda geniş informasiya yaymasa, intihar cəhdinə əl atanlar, intihar edənlər artmaz və "epidemiya"ya çevrilməz.

Havayı söhbətdir. Dövri mətbuatda bir intihar xəbərinin belə yer almadığı sovet dövründə də intihar edənlər, intihara cəhd göstərənlər var idi. Bu barədə informasiya yaymamaq intihar cəhdlərini azalda, onların qarşısını ala bilməz. Sadəcə, bu cür xəbərlər lokal səciyyə daşıyacaq - bir məhəllədə, bir qəsəbədə yayılacaq.

İntiharların, intihara cəhdlərin qarşısını almaq mümkün olmasa da, kütləviliyini azaltmaq mümkündür və bunun yolu ölkədə zülmün, haqsızlığın, ədalətsizliyin aradan qaldırılmasıdır.

Zorlu zülmkarlar olduqca, onlara gücü çatmadığını görən məzlumların gücü yalnız özlərinə çatacaq. Dövlət strukturlarının bütün instansiyalarında laqeydlik, etinasızlıq, haqsızlıq görən şəxslərin başqa yolu da yoxdur.

O altı nəfər fəhlə bilsəydi ki, hüquq-mühafizə orqanlarına müraciət edərək haqlarını ala biləcəklər, dama çıxmazdılar. Amma bu zəhmətkeş insanlara zülm edənlər mütləq "gedin, əliniz hara qəlbidir, ora qoyun, polisdə də adamımız var, prokurorluqda da, məhkəmədə də, administrasiyada da" deyiblər.

Fəhlələrin də əllərini qoya biləcəkləri ən qəlbi yer yalnız hansısa damın başıdır.

Körpüləri, Qız qalasını nəzarətə götürməklə, ora intihar hədəsi səsləndirəcək şəxslərin çıxmasının qarşısını almaqla, getdikcə kütləviləşən bu etiraz aksiyası üsulunun qarşısını almaq mümkün olmayacaq. Hətta əksinə, bundan sui-istifadə etmək istəyənlər də tapılacaq.

Bir də heç kəs özünü və qulluq mövqeyini risk altına qoyaraq, "özümü burdan ataram" deyənə, "at, atmayan belə olsun" deməyə cürət etməsin. Bu mükalimədən sonra mütləq özünü atanlar olacaq. Bu təhlükəli məqamdır. O cür hadisədən sonra heç kim artıq adamı intihar həddinə çatdıran şəxsi xilas edə bilməz.

Hazırda bu məsələ çox aktualdır - insanları intihara sövq edənləri tuturlar.

# Sabah iqtidar-müxalifət dialoqu olacaq

## Müxalifət hansı məsələləri müzakirəyə çıxaracağını açıqladı

**Müxalifəti təmsil edən bir sıra partiyaların rəhbərləri dekabrın 13-də hakimiyyət təmsilçiləri ilə bir araya gələcəklər. İqtidar tərəfdəki heyətə Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun rəhbərlik edəcəyi gözlənilir.**

Bu barədə daha təfsilatlı məlumatı olan musavat.com onların ictimailəşməməsi xahişinə görə yalnız xəbəri yaymaqla kifayətlənib. Görüşün keçiriləcəyi məkan da bizə məlumdur.

KXCP, Azadlıq Partiyası, ADP, ALDP, VİP, Aydınlar və Ümid Partiyasının rəhbərlərinin, yaxud səlahiyyətli təmsilçilərinin bu görüşdə iştirakı gözlənilir. Əvvəl verilən məlumatların əksinə olaraq, AXP-nin bu görüşdə iştirak etməyəcəyi bildirilir. Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyalardan Müsavatın və Azad Demokratlar Partiyasının da görüşdə iştirakının gözlənilmədiyi aldığımız informasiya sırasındadır.

**ADP sədri Sərdar Cəlaloğlu** isə şənbə günü baş tutacaq iqtidar-müxalifət dialoqu barədə moderator.az-ın sualını cavablandırıb.

**Həmin görüşdə konkret olaraq hansı məsələni qabartmağı planlaşdırdığı haqda danışarkən ADP sədri bunları deyib:** "Elə düşünmürəm ki, mütləq mən orda danışmalıyam. Sadəcə olaraq, iştirak edəcəyəm, əgər digər yoldaşlarım mənim fikirləşdiklərimlə bağlı məsələləri qaldıracaqsa və mənim deyəcəyim arqumentləri deyəcəklərsə, susacam. Çünki mən həmişə iştirak etdiyim bütün görüşlərdə, hətta xaricilərlə apardığımız müzakirələrdə o zaman söz alıram ki, başqalarının demədiyi hər hansı bir həqiqəti çatdırım. Əgər başqaları nəyisə deyibsə, bunu təkrar dilə gətirmək həm vaxtı itirməkdir, həm də başqalarına qarşı hörmətsizlik etməkdir. Ona görə də atmosferə baxacam, əgər yoldaşlar mənim deyəcəklərimi dilə gətirəcəklərsə, nəyə görə mütləq mən də danışmalıyam?"



Sərdar Cəlaloğlu



Mirmahmud Mirəlioğlu

S.Cəlaloğlu görüşün vaxtı və yeri barədə daha dəqiq informasiyanın görüşün koordinatoru kimi KXCP sədri Mirmahmud Mirəlioğlunda olduğunu bildirib və əlavə məlumat verə bilməyəcəyini söyləyib.

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə müxalifət partiyaları ilə hakimiyyət təmsilçisi arasında keçiriləcək görüş barədə "Yeni Müsavat"a açıqlamalar verib. M.Mirəlioğlu öncə bildirib ki, musavat.com saytının görüş barədə yaydığı xəbərlər kifayət qədər mötəbərdir:** "Görüşün yeri, günü, saatı bəllidir. İnşallah, baş tutanda hər kəs biləcək. Hələlik bilmirik, bəlkə də medianın iştirakı ilə baş tutacaq bu görüş. Görüşdə müxalifət tərəfindən iştirak edəcək partiyaların sayı dəqiqləşib. Səkkiz partiya iştirak edəcək. Həmin partiyaların adını musavat.com öz xəbərində qeyd edib. Azərbaycan Xalq Partiyası ilə bağlı məsələni isə partiyanın sədri Pənah Hüseyndən öyrənsəniz daha düzgün olar. Mənim onun əvəzindən danışmağım doğru deyil. Hakimiyyət tərəfindən isə bizim bildiyimiz budur ki, Əli Həsənov iştirak edəcək. Görüşdə iştirak edəcək partiyalar və şəxslər barəsində hakimiyyət təmsilçisinə məlumat çatdırılıb. Onlar kimlərin, hansı partiyaların iştirak edəcəyini dəqiqləşdirmək istəyirdilər. Biz də məlumatı verdik".

**Görüşdə hansı məsələlərin müzakirə olunacağına gəlincə, KXCP sədri deyib ki, müxalifət partiyaları tərəfindən iki məsələ təklif olunub:** "Siyasi məhbuslar məsələsi və müxalifətlə daha geniş tərkibli dialoqa çalışmaq, bunu istəmək. Hakimiyyət bunu qəbul edəcək, ya etməyəcək, bu, ayrı məsələdir. Bizim tərəfimizdən təxmini layihə budur. Əlavə də oluna bilər, Əli Həsənov tərəfindən də müzakirə üçün hansısa təkliflər verilə bilər".

Xatırladaq ki, müxalifət partiyaları bir ay öncə görüş üçün Prezident Administrasiyasının şöbə müdirinə müraciət etmişdilər. Razılığın olması onu göstərir ki, belə bir təmasa hakimiyyətin ən yüksək səviyyəsindən razılıq var.

❑ Etibar SEYİDAĞA

# Müsavatın Divan üzvünə töhmət verilib

## Bu, partiya daxilində ilk belə hadisədir; qərardan Divana müraciət olunacaq

**Müsavatın Divan üzvü, vəkil Nemət Kərimliyə partiyanın MNTK-sı tərəfindən töhmət verilib. Buna səbəb partiya funksionerinin Binəqədi təşkilatının Şura üzvü Arif Əzizzadəni iclas zamanı təhqir etməsi olub. Bu, Müsavat tarixində ilk belə hadisədir.**

Baş verənlərlə bağlı töhmət alan Divan üzvü Nemət Kərimlinin fikirlərini öyrəndik. O, partiyanın qərarına hörmətlə yanaşdığını söylədi: "Mən Müsavatın hər bir qərarına hörmətlə yanaşıram. Partiyadaxili məsələ olduğuna görə mətbuata əlavə şərh vermək istəmirəm. Burada təxribat var. Uzun zamandan bəri davam edən təxribatın finalıdır".

**Söyüşlərə məruz qalan Şura üzvü Arif Əzizzadə qərardan Divana şikayət edəcəyini söylədi:** "Mən qurultayda Arif bəyə səs verimişəm. Uzun müddət partiyada fəaliyyət göstərmişəm. Bəzi orqanlarda çalışmışam. Qərardan Divana şikayət edəcəm. Çünki qərarı ədalətsiz hesab edirəm. Müşavirədə Arif Hacılı və İsa Qəmbər MNTK-nın tərəfsiz olmasını demişdilər. Bununla belə, yenə mən qərarın qərəzli olduğunu hesab edirəm. Çünki bir müddət bundan əvvəl söyüşə görə partiya fəalı Müsavatdan çıxarılmışdı. İndi o qərarı gözləyirdim. Amma əksi oldu".



Nemət Kərimli

**MNTK-nın sədri Sevinc Hüseynova verdikləri qərarın ədalətli olduğunu bildirdi:** "Bildiyimiz kimi, məlum hadisə rayonun şura iclasında baş vermişdi. İclasda iştirak edən 11 nəfərin 9-u ilə danışdıq. Onların hər biri qeyd etdi ki, Arif Əzizzadə Nemət Kərimlini hadisənin baş verməsinə sövq edib. Axırda Nemət bəy dözməyib və qadınlardan bayıra çıxmalarını xahiş edib. Bundan sonra söyüş söyüb. Özü də Nemət bəy birbaşa Arif Əzizzadəni söyməyib. Yalan danışana deyib. Bu, qəbulolunmaz bir haldır. Divan üzvü səbrini basmağı bacarmalıdır. Əslində Arif Əzizzadə də Nemət bəyə söyüşlər söyüb. Ona xəbərdarlıq olunmalı idi. Ümumiyyətlə, müsavatçı söyüş işlətməməlidir. 6 aydan sonra Nemət Kərimlinin üzərində olan töhmət qərarı götürüləcək".

Qeyd edək ki, hadisə noyabrın 20-də baş verib. Bundan sonra Arif Əzizzadə Müsavat MNTK-ya müraciət edərək, Divan üzvünün partiyadan xaric edilməsi tələbini qoyub.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014

# "Yeni nəsil ortaya çıxmalıdır ki, inqilaba, qan verməyə hazır olsun"

## Mahmud Bilgin: "Bütöv Azərbaycanın yaranması Qarabağın qurtuluşudur"

**Güney Azərbaycan Demokrat Partiyasının sədri, İsveçdə mühacir həyatı yaşayan Mahmud Bilgin Bakıya növbəti səfəri çərçivəsində Güney Azərbaycan mövzusuna hər zaman önəm verən "Yeni Müsavat" qəzetini də ziyarət edib. Baş redaktorumuz Rauf Arifoğlu ilə görüşərək son gəlişmələri müzakirə edən, həmçinin Güneyin problemlərinə daim həssas yanaşması ilə seçilən qəzetə təşəkkürünü çatdıran avropalı qonağımız əməkdaşımıza müsahibə verib.**




**Bundan öncə Bakıda ötən ilin avqustunda olan Mahmud bəy budəfəki səfərində Bakını tamam başqa qiyafədə gördüyünü, hava limanından başlamış bir sıra digər ünvanlara qədər yeni tikililərin şahidi olduğunu dedi, həmçinin ölkəmizin insan haqlarının vəziyyəti ilə bağlı da inkişaf etmiş ölkələr sırasında olmasını arzuladı. Elə Beynəlxalq İnsan Haqları Gününə təsadüf edən söhbətimizdə Güney Azərbaycanda, İranda yaşayan 40 milyona yaxın türkün haqlarına toxunduq.**

***- Mahmud bəy, bu gün Avropada Güney Azərbaycan türkünün haqlarına nə dərəcədə həssaslıq var? Bu problemlər avropalı üçün nə dərəcədə diqqət kəsb edir?***

- Gərək bu məsələ Avropanın maraqlarına uyğun gəlsin. Diqqət edirsinizsə, İrandakı kürdlərlə müqayisədə türklərin məsələsi Avropanı daha az maraqlandırır. Bunun əsas səbəbi budur ki, bölgədə regional güc mərkəzi - Türkiyə var. Avropa özünü bölgədə Türkiyə ilə rəqib kimi görür. Habelə ortada Azərbaycan Respublikası var. Avropa bilir ki, Güneydə belə bir dövlətin yaranması Quzey Azərbaycanın böyüməsi deməkdir. Ortaya sual çıxır: Azərbaycanın böyüməsi Avropanın maraq dairəsindədir, ya yox? Düzdür, neft-qaz məsələləri Avropanın maraqlarına uyğundur. O mənada gedişat bizim faydamızadır. Rusiya ilə Avropanın münasibətlərinin pisləşməsi Azərbaycanın bütövləşməsi prosesinə aparır. Avropa Azərbaycanda möhkəmləndə Güney məsələsi daha qabarıq ortaya çıxacaq.

***- Maraqlı yanaşmadır. Yeri gəlmişkən, İkinci Dünya müharibəsindən sonra da münasibətlərdəki yeni situasiya Cənubi Azərbaycanda dövlətimizin qurulmasına şərait yaratmışdı. Elə söhbətimiz də Seyid Cəfər Pişəvərinin başçılığı ilə 12 dekabr 1945-ci ildə qurulan və 1 il yaşayan Azərbaycan Milli Hökumətinin yaranmasının ildönümünə təsadüf edir...***

- Elədir. 21 Azər bizim üçün mühüm tarixdir. 26 dekabr da bizim soyqırım günümüzdür. O zaman 30 mindən çox şəhid verdik, on minlərlə insan didərgin düşdü. Biz elə keçən ilin indiki vaxtı bu məsələləri Amerikanın gündəminə çıxara bildik, Konqres və Senatda bəyanatlar yaydıq. O zaman konqresmen və senatorlarla görüşdük, həm dövlətçiliyimizi yaydıq, həm Urmu gölü ilə bağlı fəlakətli vəziyyət haqda məlumat verdik, həm də 21 Azərdən danışdıq. Hətta cənab Obamaya məktub yazmışdıq. Həmin məktubda bildirmişdik ki, Obama gərək 1946-cı ildə Azərbaycanda baş verənlərə görə üzr istəsin. Çünki ABŞ-ın həmin vaxt azərbaycanlılara qarşı törədilən soyqırımda əli vardı. Bu məsələni ən yüksək səviyyələrdə səsləndirdik, 17 senator və konqresmenlə görüşdük, həmçinin senator Tom Kubinlə, Güney Azərbaycanla bağlı istəklərimizi ortaya qoyduq, Güney həqiqətlərini Konqres və Senatda yaydıq. Növbəti görüşlərimizdə bu məsələlərə bir daha qayıdacaq, Amerika dövlətinin rəsmilərinə istəklərimizi çatdıracağıq. Bakıda olmadığım son il yarımda bizim əsas fəaliyyətimiz lobbiçiliklə bağlı olub. Lobbiçiliklə bağlı çox böyük addımlar atmışıq, Avropa Parlamentinin müxtəlif strukturlarında, insan haqları təşkilatında, xarici işlər bölümündə, müşavirlikdə yüzlərlə görüş keçirmişik.

**"İran rejimi siyasi baxımdan nə qədər zəifləsə, o qədər də biz qurtuluşumuza yaxın gedəcəyik"**

***- Bəs bu görüşlərin faydasını nə zaman görmək mümkün olacaq?***

- Artıq faydasını görməkdəyik. Biz Avropa Parlamentinin rəsmiləri ilə görüşmüşdük. Güney mövzusunda müzakirələr apardığımız parlamentarlardan biri Avropa Parlamentinin toplantısında ilk dəfə durub Güney Azərbaycandan, siyasi məhbuslarımız, Urmu gölü fəlakətindən danışdı. Düz 15 dəqiqə ancaq bizdən bəhs etdi.

***- Ancaq Avropa, ümumən Qərb yenə də İranla anlaşmış kimi görünür. Bu mənada yaxın tariximizdə olduğu kimi Güney Azərbaycan növbəti dəfə qurban verilə bilərmi?***

- Elə mən də bu barədə danışmaq istəyirdim. Bizim problemlərdən Avropa Parlamentində danışan parlamentarın rəhbərlik etdiyi heyət 3-4 ay bundan qabaq İrana getdi. 5 nəfərlik nümayəndə heyəti idi. Onların qoltuğunda Güney Azərbaycanla bağlı məlumatlar da var idi. Mən onlardan xahiş etdim ki, gedib bizim Təbrizdə, Kərəcdə, Evindəki siyasi məhbuslarımızı görün, Urmu gölünə yaxından baxın. Biz də bilirdik ki, İran onların bu istəklərini qəbul etməyəcək, ancaq cəhd göstərmələrini istədik. İstənilən halda Avropa Parlamenti nümayəndələrini Avropa ilə üzbəüz qoymaq istədik.

***- Son nəticədə təmas baş tutdumu?***

- Bəli, istəyimiz alındı. Bunlar getdilər, yüksək səviyyədə görüşlər keçirdilər, istəkləri çatdırdılar. Düzdür, gözlədiyimiz kimi, Güneylə bağlı təklifləri, istəkləri Tehran qəbul etməmişdi. Ancaq ötən həftə Avropa Parlamentinin İran bölümünün ikinci başqanı Ernest xanımla görüşümüz oldu. Xanım açıq dedi ki, bizə verdiyiniz bilgiləri çatdırdıq. Ancaq qəbul olunub-olunmaması məsələsi bizim əlimizdə deyil. Çünki İran bizim üzvümüz deyil. Avropa Parlamentinin İrana yaxınlaşıb-yaxınlaşmaması əsasən Amerikanın siyasəti ilə əlaqədardır. Əks təqdirdə, Avropa Parlamentinin İranla bağlı özfəaliyyəti ola bilməz, Qərbdə ABŞ aparıcıdır. Amerika desə ki, İrana qarşı embarqo tətbiq etmişəm, Avropa bu ölkəyə yaxınlaşmasın, o halda Avropa Tehrana doğru addım ata bilməz.

***- Amma İrana qarşı sanksiyaların ən böyük zərbəsi həm də Azərbaycan türklərinə dəyir...***

- Düzdür. Amma biz bunu Amerika və Avropa Parlamentindəki görüşlərimizdə açıq şəkildə istədik ki, İrana qarşı embarqoların çoxaldın. Çünki bu gün Urmu gölü faciəsi bir tərəfdən millətimizə zərbə vurur, digər tərəfdən, assimilyasiyaya məruz qalırıq. Biz varlığımızı itirməkdəyik. Millətimizin yaşayışı ikinci məsələdir. Bizim üçün önəmlisi başqadır. İran rejimi siyasi baxımdan nə qədər zəifləsə, o qədər də biz qurtuluşumuza yaxın gedəcəyik. İranda sosial partlayış baş versə, orda yeni dövlətin yaranması müzakirə mövzusudur. Əhalini isə bu partlayışa hazırlamaq lazımdır. Sosial partlayış şəraitini də embarqolar yaradır. İranın iki il bundan qabaq neftdən gələn gəliri 118 milyard dollar idi. İndi olub 68 milyard dollar. Bu gəlirlərin azalması bizim faydamızadır. İranın əlində çox pul olanda məgər bizim millətə xərcləyir? Xeyr. Bu pulları polislərə verir, bandalarını çoxaldır, bizi daha çox assimilə edir. Odur ki, mənim nəzərimcə, İran dövlətinin zəifləməsi bizim millətin xeyrimizədir. İranda eynilə sovetlər birliyinin son illərində gedən proseslərin şahidiyik. Qorbaçovun vaxtında sovetlər birliyi iqtisadi baxımdan dağılmış idi. Sovet imperiyasının iqtisadi cəhətdən çökməsi ilə Quzey Azərbaycan Respublikası yarandı. Deyək ki, o zaman Bakıya iqtisadi cəhətdən dəstək verilsəydi, bu, sovetlər yaşada bilməzdi. Çünki böyük gəlirlərə malik olmuş Moskva və Leninqrad kimi iri şəhərlər çökürdü. Bizim də əsas məqsədimiz odur ki, mərkəz zəifləsin. Bu, bizim strategiyamızdır. Hər şey ki, İran rejimini zəiflədir, biz ona yaxınıq.



**"Obama gərək 1946-cı ildə Azərbaycanda baş verənlərə görə üzr istəsin"**

***- Bu gün Güneydəki milli hərəkat səngimiş kimi görünür, üstəlik də hərəkat lidersiz qalıb. Belə olan halda vəziyyətin yaxşılığa doğru dəyişməsinə nə dərəcədə ümid edirsiniz?***

- İran hakimiyyəti "liberal" adlandırdığı Ruhani kartı ilə oynamağa çalışdı, azərbaycanlıların bəzi hissələrini də arxasınca aparmağa çalışdı, bir sıra hallarda buna nail oldu. Biz demişdik ki, bu, bir oyundur. Ancaq rejim bu oyunu bacardı. İndi isə bu oyun əhali arasında öz rəngini itirib. Sual olunur, Ruhani bu il yarımda nə iş gördü? Əslində vəziyyət daha da pisləşib. Camaata basqılar yenə davam edir, Urmu gölü üçün bir iş görmədi, ədalət gətirəcəyini vəd etmişdi, bunu görmədik. Üstəlik, yerindən tərpənən zindana atıldı. Yeni GAMOH-un liderlərindən olan Yürüş Mehrəlibəyli, Lətif Həsənliyə 9 il zindan veriblər. Bu, təkcə onlara verilən cəza deyil. Bizim millətimizin gözünü qorxutmaq üçün belə edirlər ki, o biri fəallar da yerlərində otursunlar. Camaatımız bu basqının qabağında nə edir? Görür ki, küçə və meydanlara çıxsa, qan töküləcək, hələ inqilab vaxtı deyil. Ona görə də otaqlara toplaşıb türkləşmə, milliləşməyə aid kitablar oxuyurlar, internetdən materiallar tapırlar, feysbukla əlaqə yaradırlar. Bu yolla milli hərəkat özünü toparlamağa çalışır ki, yenidən hərəkətə keçsin. Bir də ki, inqilab etmək sadə məsələ deyil. 2006-cı ildə milyonlarla insan küçələrə axışdı, onlarla şəhid verdik, yüzlərlə yaralımız oldu, 17 min ada tutuldu. Bu, bir topluma böyük bir zərbəydi. Növbəti dəfə ayağa qalxmaq üçün hazırlıq gərəkdir. Yeni nəsil ortaya çıxmalıdır ki, inqilaba, qan verməyə hazır olsun. Bu hazırlıq da gedir. Əsas məsələ odur ki, rejim zəifləsin, rejimin içərisindəki mafiya qrupları zamanında olduğu kimi bir-birinin qanına daraşsın və Qərb də bizim hərəkatı mənimsəsin, ona yardımçı olsun. Yardımçı olmasa da, heç olmasa hərəkata müxalif də olmasın.

***- Ancaq təhlükəlisi budur ki, Qərb kürd topluma "stavka" edir. Qərbi Azərbaycan torpaqlarına iddia edən kürd təhlükəsi barədə nə deyə bilərsiniz?***

- Təbii ki, bu təhlükə realdır. Biz istərdik ki, bütün qonşularımızla normal əlaqələrimiz olsun. Kürdlər də bizim kimi fars şovinizminin zülmü altındadır. Onlarla işbirliyimizin olmasını istərdik. Amma gözlərini bizim torpaqlarımıza dikiblər, torpaqlarımızın üçdə birini "Kürdüstanın ərazisi" elan ediblər. O səbəbdən biz bunlarla bir yerdə otura bilmirik. Avropa təbii ki, o bölgədə özünə ayaq yeri tapmağa çalışır. Bölgədə İsrail kimi bir dövlət yaratmaq istəyir ki, öz maraqlarını təmin etsin. Bizim də gücümüz var. Kürdlər on illər boyu Amerikada, Avropada lobbiçiliklə bağlı işləyiblər. Ancaq biz də son illərdə bu istiqamətdə çox ciddi və sistemli proqramla işləyirik. Artıq azərbaycanlılarla söhbətdə belə bir fikir ortaya qoymuşuq ki, Avropadakı partiyaların içərisinə girmək lazımdır. Seçkilərdə namizədliklər irəli sürülməlidir ki, nümayəndələrimiz olsun. Biz iki qanadla işləməyə başlamışıq, artıq uğurlarımız da var. İsveçin özündə bir azərbaycanlı əyalət parlamentinə, digəri bələdiyyəyə üzv seçildi. Üst qatda da görüşlərimiz davam edir. Yeni artıq öz içimizdəki savaşları durdurub bütün qüvvəmizi vahid məqsədə səfərbər edirik ki, özümüzü tanıtdıraq.

***- Azərbaycana səfəriniz çərçivəsində rəsmi və qeyri-rəsmi səviyyədə kimlərlə görüşməyi planlaşdırırsınız? Ümumən Azərbaycandan indiki həssas dönəmdə Güneylə bağlı gözləntiniz nədir?***

- Biz milli hərəkatın dərdlərinin yayılması baxımından Türkiyə və Azərbaycandan başqa hansısa digər dövlətdən nəsə gözləmirik. Azərbaycan isə elə özümüzük, bədənimizin bir parçasıdır. Ona görə də gözləntimiz təbiidir. Azərbaycanın həm hakimiyyəti, həm də müxalifəti bizə qardaşdır. Biz hər ikisinin yanında olmaq istəyirik. Düzdür, biri mövqeyinə görə bizim dərdimizi çox deyir, digəri bəzi məsələlər səbəbindən deyə bilmir. Arzumuz odur ki, onlar da bizə eyni gözlə baxsınlar, bizi hansısa qüvvənin yanında görməsinlər. Biz güney azərbaycanlıyıq və bizim mənfəətlərimiz Azərbaycanın strateji maraqları ilə üst-üstə düşür. Bütöv Azərbaycanın yaranması Qarabağın qurtuluşudur. O mənada istərdim ki, Azərbaycan hakimiyyəti bizi açıq dəstəkləməsə də, heç olmasa vətəndaş cəmiyyətinin dərdlərimizi deməsinə imkan yaratsın. Təbii ki, hakimiyyətin siyasi çətinlikləri var.

***- Güney Azərbaycanla bağlı tədbir keçirilən kimi Tehrandan etiraz gəlir, həmçinin Mahmudəli Çöhrəqanlının Bakıdan deportasiyasında da İran faktoru mühüm rol oynayıb. Yəni hakimiyyət bu amilləri də nəzərə alır...***

- Təbii. Güney məsələsi çox həssas məsələdir. İran rejimi hər kiçik məsələyə reaksiya verir. Amma Azərbaycan Avropaya inteqrasiya xətti yürüdən müstəqil dövlətdir, Avropa Oyunlarına ev sahibliyinə hazırlaşır, Avropanın bir hissəsidir. Yeni Azərbaycanın insan haqlarına önəm verməsi heç kəsi incitməməlidir. Üstəlik də biz eyni millətik. Cənab prezident İlham Əliyev 50 milyondan söz açıb. Əgər 50 milyonun prezidenti olduğunu deyibsə, onda bu insanların arxasında durması lazımdır. 50 milyonun 35 milyonu çox ağır bir durumdadır. Millətimizi assimilyasiya etmək, silmək istəyirlər, Urmu gölü ilə bağlı 15 milyonun taleyi sual altındadır. Üstəlik, Urmu gölünün quruması nəticəsində toplanan duz kütləsi bütövlükdə bölgə üçün, həmçinin Azərbaycanın quzeyi üçün təhlükə mənbəyidir. Azərbaycan hakimiyyəti və müxalifəti bu məsələləri qaldıra, gündəmdə saxlaya bilər. Bu mənada həm müxalifət, həm iqtidar nümayəndələri ilə, həmçinin Azərbaycan nümayəndə heyətləri ilə görüşməyə çalışacağam. Sizin vasitənizlə də sözümüzü çatdırırıq ki, bizim dərdimiz hakimiyyət dərdi deyil. Bizim dərdimiz milli dərddir. Odur ki, bu, hamımızın məsələsidir...

❑ **Elşad PAŞASOY**
**FOTO: Cavanşir ABBASLI**



# Gizli "öpüşər" hesabları

Zamin HACI
zaminhaci@gmail.com

**Cəmiyyətlə hökumət eyni rejimdə çalışanda, o cındırından cin ürkən ifadədə deyilən kimi, "hakimiyyət və xalq bir-birinə layiq olanda" həyat da maraqlı olur. Yaşamaq üçün stimul nə qədər istəsən var. Hər yer stimulla doludur. Acından stimul yeyirik. Qusanda stimul qusuruq.**

Misal üçün, hansısa jurnalist hakimiyyətdəkilərin ofşor hesablarını, gizli-açıq şirkətlərini necə həvəslə araşdırıb ortaya qoyurdusa, hakimiyyət də həmin jurnalistin yorğan-döşəyini eyni əzmkarlıqla, entuziazmla *(bu da həvəs anlamı verən sözdür, sadəcə, "orqazm" sözü ilə qafiyə yaratdığından mətndə yerini parıldayan gördüm)* araşdırır, yoxlayır, qoxlayır. Yorğanın altında nələr olub - xalq mütləq bunu bilməlidir.

Yeri gəlmişkən, Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları adlı qədim əlyazmada - Əflatun müəllim onu zirehli şüşə altında, MŞ-nin ofisində saxlayır - aydın xətlə belə yazılıbdır: "Jurnalistikanın ali məqsədi həqiqəti yaymaqdır, obyektivlik isə əsas peşə meyarıdır". Vəssalam! Ta burda yazılmayıb ki, jurnalist getsin öpüşsün, nə bilim, sevişsin. Ayıb olsun öpüşən jurnalistlərə! Ümumiyyətlə, bizim xalqın mentalitetində öpüşmək yoxdur. Oğurlamaq, çapmaq, talamaq (Koroğlu, Nəbi), yalan, satqınlıq və yaltaqlıq (Yalancıq, Keçəl Həmzə, Məlikməmmədin qardaşları) var, ancaq öpüşmək yoxdur.

Bunlar hamısı şəffaf cəmiyyət quruculuğunun meyarlarıdır. Sən bizim neft yatağının hesabından yaz, biz də sənin yatağının hesabından film çəkək. Jurnalist yataqları üzrə hətta prodakşn şirkəti yaradılıb - dövlət büdcəsi hesabına.

Xalq da hesabların eninə-uzununa baxıb bələdiyyə seçkilərində kimə səs verəcəyini müəyyənləşdirsin. Yoxsa bəziləri deyirlər ki, guya bu murdarçılıqlardan sonra ölkəmizdə yaşamaq olmaz və sairə. Lap gözəl yaşanır. Boyunun dalı bəs nədən ötrüdür? İnsan orqanlarının hər birinin funksiyası var axı. Əl pul saymaq üçündür, dil yalan demək, göz jurnalist videolarına baxmaq, diz çökmək, qarın piylənmək, burun soxulmaq üçündür və sairə. Peysər də peysərə vermək üçündür. Əks halda, tarixi evolyusiya nəticəsində peysər rudiment orqana - funksiyasız bədən üzvünə çevrilərdi, aradan qalxardı. Qalıbsa önəmlidir. Böyür-başımızda kimi istəsələr tutub minsinlər, türməyə salsınlar, anasını ağlatsınlar, çörəyini əlindən alsınlar - qəti qarışmaq olmaz. Peysərə verməliyik. Orqanlar işləməlidir. Həm də bədən orqanları mənasında.

Ancaq hər bir cəmiyyətdə olduğu kimi, bizdə də peysərə vermək istəməyənlər var. Təəssüf ki, bu adamlar intihar fikrinə düşürlər. Hökumət onların intiharını önləmək üçün körpüyə polis postu qoydu, lakin bu dəfə intiharçılar şəhərin mərkəzinə gəldilər, düz polis nazirliyinin yanında göydələnin başına çıxdılar. Özü də 5 nəfər eyni vaxtda! Millət artıq kütləvi intiharlara gedir, yapizm quruculuğunu görmək istəmirlər.

Düzü, bu son intihar aksiyalarından sonra mən Bakının arxitekturasında yapistlərin törətdiklərini anlamağa başladım. Fikir versəniz, onların tikdiyi heç bir binanın, türkün məsəli, ucu yoxdur. Örnək üçün, Alov qüllələri adlanan 3 pinqvin binalarını göz önünə gətirin. Yaxud "Evrovizqon" keçirilən "Kristall Hall"ı. Bunların heç birində intihar eləmək olmaz, çünki ortada çıxılası dam yoxdur! Uzaqgörən arxitekturadır.

Ölkədəki başqa binaların damına, ağacların başına, eyvanlara, qayalıqlara, quş yuvalarına və sairə hündür yerlərə polis postları qoymaqla intiharları əngəlləmək lazımdır. Əlavə iş yerləridir. "-Harda işləyirsən? - İntihara qarşı mübarizə baş idarəsində!" - gör necə yaxşı, humanist səslənir...

Evində zəhər içənlərə, özünü toka verənlərə, asanlara qarşı da polis idarələri yaradılsa məqsədəuyğun olar. Qırılan qoşundandır.

# Ölkədə kütləvi ixtisarlar başlayır

**Neftin qiymətinin dünya bazarında sürətlə düşməsi artıq Azərbaycan iqtisadiyyatına da təsirini göstərməkdədir. Ekspertlər hesab edir ki, proses bu cür davam edərsə, növbəti illərdə neft ixracatçısı olan Azərbaycan iqtisadiyyatına daha ciddi şəkildə zərbə dəyəcək.**



# Neftin düşməsi Azərbaycanı "vurdu" - böhran qapıda

## "Qara qızıl"ın qiymətinin ucuzlaşması ölkəmizi ciddi təhlükələrə soxa bilər; BP rəhbəri və YAP-çı deputat ixtisarlar olacağının anonsunu verdi; işdən çıxarılmalarla yanaşı bir sıra sosial proqramların və iri infrastruktur layihələrinin dayandırılması da baş verə bilər

Bu baxımdan, ölkədə həyata keçirilən, yaxud nəzərdə tutulan bir sıra layihələrin təhlükə altına düşəcəyi, iş yerlərində kütləvi ixtisarların olacağı gözlənilir. İxtisarlarla bağlı artıq bir sıra məlumatlar yayılmaqdadır və bu, cəmiyyətdə ciddi narahatlıq doğurur. Neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanda minlərlə adamın iş yerini itirməsinə səbəb ola bilər.

Bu ixtisarların Azərbaycanda fəaliyyət göstərən böyük şirkətləri də əhatə edəcəyi qaçılmaz görünür. Bununla bağlı artıq rəsmi açıqlamalar da var. Məsələn, Böyük Britaniyanın "Guardian" qəzetinə müsahibəsində BP şirkətinin baş icraçı direktoru Bob Dadli bildirib ki, gələn il şirkət məcburi ixtisarlara 1 milyard dollar xərcləyəcək. İxtisarların aparılacağı ölkələr arasında Azərbaycanın da adı var. Məcburi ixtisarlara əsas səbəb kimi neftin kəskin ucuzlaşması göstərilir.

Başqa xarici şirkətlərdə də ixtisarların aparılacağı haqda məlumatlar var və bəzi bu cür qurumlarda artıq işçilərə bununla bağlı xəbərdarlıq da olunub.

İxtisarların kütləvi şəkildə aparılacağı sahələr arasında təhsil sisteminin də olduğu bildirilir. Elə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov mətbuata müsahibəsində təhsil sahəsindəki vəziyyətlə bağlı danışarkən müəllimlərin sayının azaldılmalısının zəruriliyi ilə bağlı dedikləri də bunu təsdiqləyir. S.Novruzov deyib ki, müəllimlərin sayı azaldılmalı, maaş isə artmalıdır.

"Kimin qabiliyyəti çatır, oturub işləməlidir, kimin də qabiliyyəti çatmır, həm xalqın uşağını şikəst etməməlidir, həm də digərlərinin boğazına şərik olmamalıdır" - deyə, YAP-çı deputat bildirib. O, həmçinin elm sektorunda da ixtisarların aparılma zərurətindən danışıb.

Ekspertlərin fikrincə, əslində S.Novruzovun müəllimlərin sayının azaldılması haqda dedikləri ölkədə nəzərdə tutulan ixtisarların anonsu sayılmalıdır. Sadəcə olaraq, YAP-çı deputat konkret olaraq təhsil sahəsi ilə bağlı danışdığından müəllimlərin sayının azaldılmalı olduğunu deyib.

İxtisarlar məsələsinin gündəmə gəlməsi "qara qızıl"ın vəziyyətinin qara günə düşməsinin Azərbaycana vuracağı zərbənin ilkin işartılarıdır.

Dünya bazarında neftin qiymətinin ucuzlaşmasının Azərbaycan üçün fəsadlar törədəcəyi onsuz da ilk gündən gözlənilən idi. Hələ bu proseslər yeni başladığı vaxtlardan ekspertlər hesab edirdilər ki, neftin qiymətinin düşməsinin real təsiri Neft Fondunun dividentlərinin azalmasına, hətta bir müddət sonra fondun rezervlərinin bitməsinə də səbəb ola bilər.

Ekspertlərin fikrincə, neftin qiymətinin düşməsi ilə ilkin vaxtlarda büdcə gəlirlərində problem olmasa da, rezervlər bitəcəyi təqdirdə çox ciddi problemlərin meydana çıxacağı qaçılmazdır. Onlar fikirlərini belə əsaslandırırlar ki, Azərbaycan iqtisadiyyatının neftin qiymətindən asılılığı var. Neftin qiymətinin düşməsi neft şirkətlərinin gəlirlərinin, onlarin vergilərinin azalmasına səbəb olacaq. Bu isə xüsusən də neft sahəsində çalışan şəxslərin kütləvi ixtisarına gətirib çıxaracaq. Amma bu ixtisarlar təkcə hansısa bir sahəni əhatə etməyəcək.

İqtisadçıların qənaətincə, ixtisar dalğası bütün sahələrdə çalışanları "vuracaq".

Gözlənilən təhlükədən maksimum az zərərlə çıxılması üçün nə etmək lazım olduğuna gəlincə, ekspertlər hesab edir ki, bəzi sosial proqramlar məhdudlaşdırılmalı, həyata keçirilən və nəzərdə tutulan bir sıra infrastruktur layihələri bir neçə illiyə təxirə salınmalıdır.

Qeyd edək ki, prezident İlham Əliyev də bir neçə gün əvvəl "Rossia 24" telekanalına müsahibəsində neftin ucuzlaşmasından danışarkən deyib ki, "yeganə mənfi hal" hökumətin il ərzində etməyi planlaşdırdığı işləri iki ilə görmək məcburiyyətinin yaranmasıdır. **"Dünyada neftin qiymətinin düşməsi, şübhəsiz, planlarımıza mənfi təsir göstərəcək. Lakin biz müxtəlif ssenarilər işləyib hazırlamışıq. Sadəcə prioritet olmayan istiqamətlər, infrastruktur layihələri üzrə büdcə xərclərini azaldacağıq.Yaxşı ki, əvvəlki illərdə biz artıq həmin layihələri əsasən həyata keçirmişik"**, deyə İlham Əliyev bildirib.

Prezident eyni zamanda deyib ki, neftin qiyməti 60 dollara düşsə belə, Azərbaycan iqtisadiyyatı sabit inkişaf edəcək.

Gələn ilin dövlət büdcəsində neftin qiyməti 90 dollardan hesablanıb. Hazırda isə dünya bazarında neftin qiyməti 65 dollara düşüb.

Qeyd edək ki, artıq ARDNŞ neftin qiymətinin kəskin enməsi ilə bağlı şirkətdə ixtisarların olub-olmayacağına münasibət bildirib.

ARDNŞ-in ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev APA-ya deyib ki, şirkət heç bir ixtisara əl atmaq niyyətində deyil.

Amma hələ neftin qiyməti düşməzdən əvvəldən ARDNŞ-də müəyyən ixtisarlar gedir və bunun davam edəcəyi bildirilir.

❑ **Teymur HƏSƏNLİ**

# "Müəllimlər ixtisar edilsin, maaşlar isə artırılsın"

## Siyavuş Novruzov problemdən çıxış yolunu belə görür; Vahid Əhmədov əməkhaqları məsələsinin gündəlikdə olduğunu deyir

**YAP-çı deputat Siyavuş Novruzov ölkə təhsilindəki problemlərdən çıxış yolunu göstərib. Deputat təklif edib ki, akademiyanın institutları birləşdirilsin, orta məktəblərdə müəllimlər ixtisar edilsin, maaşlar isə artırılsın: "Bu gün ali məktəblərin səviyyəsi olduqca yüksəkdir. Həm təmiri, həm texniki təchizatı yüksək şəkildədir. Onun tərkibində dəyişiklik etmək lazımdır. Dəyişiklik də əmək haqqından asılıdır. Bu olduqca çətin islahatdır.**

Ona biz getməliyik. Bunun üçün müəllimlərin sayı azaldılmalıdır, maaş isə artmalıdır. Kimin qabiliyyəti çatır, oturub işləməlidir, kimin də qabiliyyəti çatmır, həm xalqın uşağını şikəst etməməlidir, həm də digərlərinin boğazına şərik olmamalıdır".

**S.Novruzovun fikrincə, müəllim sinifdə yaxşı dərs deyəndən sonra uşağın repetitor yanına getməyinə ehtiyac qalmır:** "Oturub kitabdan oxuyar, istiqamətə uyğun hazırlaşır. Yaxşı müəllim özü istiqamət verir. İndi bizdə bəzi universitetlərdə tələbə müəllimdən savadlıdır.

Çünki tələbə girir internetə, hər bir yerdən oxuyur. Müəllimlərin isə çoxu ötən əsrin 70 - 80-ci illərində yazdığı konspektlə gəlib tələbəyə dərs deyir. Tələbə də ona qulaq asmır".

Deputatın bu təklifini məntiqli hesab etməyənlər var. Onların fikrincə, hökumət faydasız investisiya layihələrinə sərf etdiyi vəsaitləri müəllimlərin əmək haqlarını artırmağa yönəldə bilər.

**Milli Məclisin İqtisadiyyat komitəsinin üzvü, deputat Vahid Əhmədov "Yeni Müsavat"a bildirdi ki, müəllimlərin əməkhaqlarının artırılması gündəlikdə olan məsələdir. Deputatın sözlərinə görə, parlamentin plenar iclasında da bu məsələ qaldırılıb:** "Müəllimlərin maaşlarının artırılması ilə bağlı büdcədə 4, 5 faiz artım nəzərdə tutulub. Təhsil naziri Mikayıl Cabbarov məlumat verdi ki, müəllimlərin hazırda attestasiyası keçirilir və əməkhaqları onların qabiliyyətinə görə artacaq".



**V.Əhmədov hesab edir ki, müəllimlərin ucdantutma ixtisarı qeyri-mümkündür:** "Akademiyanın instutları konkret sahələr üzrə fəaliyyət göstərir, təhqiqatlar aparır. Rəhbərlik müəyyən işlər də görür. Ancaq problemlər var və bəzi institutları birləşdirmək olar. Bu məsələnin əmək haqlarına bir əhəmiyyəti olmaz. Razıyam ki, əməkhaqları artırılmalıdır. Bu gün müəllimləri maaş problemi mövcuddur. Əsas problem kəndlərdə, ucqar yerlərdə işləyən müəllimlərlə bağlıdır. Ancaq ucdantutma ixtisarlar aparmaq olmaz. Bunun sayı-hesabı var, dərs tutumunu müəyyən etmək lazımdır. Mikayıl Cabbarov bu işlərlə məşğuldur və müəllimlərin bilik səviyyəsinə görə əməkhaqları müəyyən ediləcək".

**Deputat büdcədə vəsait problemi olmadığını deyir:** "Bu məsələni kökündən həll etmək lazımdır və biz hökumət qarşısında problemi qaldırmışıq. Niyə 11 il təhsil alan məktəbli repetitor yanına getməlidir və pul xərcləməlidir? Bu gün ən az əmək haqqı müəllimlər alır. Cəmi orta əmək haqqının 50 faizini alırlar. Bu problem ciddi məsələdir və hökumət həll etməlidir".

❑ **E.SALAMOĞLU**

# "Soros"un Bakı ofisi ləğv olundu

## 2011-ci ildən fəaliyyətini dayandıran qurum barəsində cinayət işi açılıb, bank hesabına həbs qoyulub

**Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun (Soros) Azərbaycan nümayəndəliyi fəaliyyətini dayandırır. Bu barədə qurumun baş ofisi dekabrın 10-da qərar verib. Vəkil Elçin Sadıqov "Qafqazinfo" saytına bildirib ki, ACİYF-nin Azərbaycan nümayəndəliyinin ləğvetmə işlərinə başlanıb. Ləğvetmə işlərini aparmaq ACİYF-nin etibarnamə əsasında nümayəndəsi vəkil Elçin Sadıqova həvalə edilib.**



Fond bildirir ki, Azərbaycan həmişə ACİYF üçün dost ölkə olub. ACİYF Azərbaycanda təhsilin, medianın və hüququn aliliyinin təmini üçün çalışıb. ACİYF-nin məqsədi Azərbaycan dövlətinin və cəmiyyətinin rifahı olub. Bu məqsədlə müxtəlif dövlət qurumları, kommersiya və qeyri-kommersiya təşkilatları ilə əməkdaşlıq edib.

Qeyd edək ki, daha çox "Soros" Fondu kimi tanınan bu qurum son illərdə qapadılan ilk ABŞ təsisatı deyil. Bundan əvvəl bir sıra Qərb, o cümlədən ABŞ qurumları fəaliyyətini dayandırıb. Bir neçə gün əvvəl ABŞ-ın "Peace Corps" ("Sülh Korpusu") təşkilatı Azərbaycandakı fəaliyyətini dayandırıb. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqan mətbuata açıqlama verib. Onun sözlərinə görə, Azərbaycan hökuməti, respublikada 11 ildir fəaliyyət göstərən "Peace Corps" humanitar təşkilatının bundan sonrakı fəaliyyətinə ehtiyac görməyib.

Oktyabrda isə ABŞ-ın IREX təşkilatı Azərbaycandakı fəaliyyətini dayandırması və Bakıdakı ofisini bağlaması barədə xəbər yayıb. Məlumatda deyilir ki, Azərbaycan qanunvericiliyinə əsasən, qeydiyyat müddəti bitdikdən sonra təşkilat təkrar qeydiyyat üçün müraciət etməməyi qərara alıb. Sentyabrın 5-də prokurorluq əməkdaşları İREX-in Bakı ofisində axtarış aparıb. Ofisdəki elektron avadanlıqları, sənədləri müsadirə etmişdi. Bir sıra yerli və beynəlxalq QHT-lərə açılan cinayət işi üzrə iyulun 31-də məhkəmə qərarı ilə İREX-in də bank hesabına həbs qoyulmuşdu.

Azərbaycanda 1998-ci ildən fəaliyyətdə olmuş IREX-in bəyanatında deyilir ki, təşkilat bir sıra hökumət təsisatları, kommersiya və qeyri-mənfəət qurumları ilə əməkdaşlıq şəraitində ölkədə təhsilin, media və internetin inkişafına böyük töhfə verib.

Xatırladaq ki, Azərbaycanda nüfuzlu ABŞ QHT-ləri olan Beynəlxalq Respublikaçılar İnstitutu 2010-cu ilin aprelində, Milli Demokratiya İnstitutu isə bundan bir il sonra fəaliyyətini dayandırıb. Bundan başqa, bu il ərzində Azad Fikir Universiteti (AFU) və "Norveç İnsan Hüquqları Evi"nın Bakı ofisi qapadılıb.

**"Yeni Müsavat"ın əməkdaşı ilə söhbət zamanı vəkil Elçin Sadıqov bildirib ki, "Soros" Fondunun Azərbaycandakı ofisi fəaliyyətini 2011-ci ildən dayandırıb. İndi isə qərar qəbul olunub və təşkilatın ləğv edilərək reysterdən çıxarılması prosesi başladılıb:** "Təşkilatın tamamilə ləğv edilməsinin bir səbəbi bəzi QHT və beynəlxalq donor təşkilatlarının Azərbaycandakı nümayəndəlikləri haqda açılan cinayət işi ilə bağlıdır. Digər tərəfdən, rəhbərlik qərar verib ki, artıq qurumun fəaliyyətinə son verilsin. Biz ümid edirik ki, başlanılmış cinayət işi hüququn aliliyi prinsipi ilə həll olunacaq. Yayda yerli QHT-lərə və beynəlxalq donor təşkilatlarına qarşı qaldırılmış cinayət işində ACYF-nin də adı var. Bank hesablarına qoyulmuş həbs davam edir. Ümid edirik ki, bu cinayət işi ədalətlə aparılacaq və ləğvetmə başa çatacaq".

❑ **KƏNAN**

# Oxşatmaq istəyirlər, amma daha bacarmırlar...



**Hüseynbala SƏLİMOV**

**Müxalifətçilərin, onların tərəfdarlarının bu ölkədə dilxor olması adi bir haldır. Burada təəccüblü heç nə yoxdur. Amma bir də görürsən ki, hakimiyyət təəssübkeşləri də dilxorluq içində vurnuxurlar. Bu, artıq həqiqətən də maraqlıdır. Bəs nədən hakimiyyət adamları ovqatlarını təlx ediblər? Axı onların hər şeydən çox sevdikləri bir şey-hakimiyyət üçün elə bir təhlükə görünmür...**

Səbəb sadədir. İki həftədən sonra ölkədə seçki olmalıdır. Amma bir-iki telesüjeti çıxsaq, belə bir görüntü - seçki görüntüsü yaradan heç nə yoxdur və hakimiyyətə yaxın adamları da dilxor edən odur ki, deyəsən, bu tamaşa çox sönük olacaq - nə rəqiblər görünür, nə təbliğat aparan var, nə də namizədliyinin qeydə alınmamasından qeyzlənən... Əsl ölü sükutudur. Hətta iş o yerə çatıb ki, telekanallar bu cür vəziyyətin "səbəb"lərini axtarmağa girişiblər...

Amma əbəsdir. Qeyri-adi heç nə baş vermir. Bələdiyyə seçkilərinin əsl seçkiyə bənzəməsini istəyirsinizmi? Bunun üçün çox şey tələb olunmur, yetər ki, iki istiqamətdə fundamental dəyişiklik edəsən...

Birincisi, seçkilərə, lap qədim Çin filosofları demişkən, onların mahiyyətini qaytarmaq lazımdır. Birinci tələb odur ki, seçki olmalıdır. Qutudan bir il əvvəldən məlum adlar deyil, insanların səs verdiyi adamların adı çıxmalıdır...

Nə qədər ki, bu yoxdur, nə seçki ilə maraqlanan olacaq, nə də seçkidə iştirak etmək istəyən. Hakimiyyəti bəlkə də o qeyzləndirir ki, adamlar niyə növbəti dəfə onlara ayrılan siyasi rolları ifa etmək, seçki görüntüsü yaratmaq istəmirlər? Bunun da üzərində baş sındırmağa dəyməz. İnsanlar yorulublar-bu monoton siyasi tamaşalardan, get-gəl oyunundan beziblər...

Bunu gizlədən də yoxdur. Hamı açıq deyir. Sadəcə, onların səsini-sözünü çatdıran yoxdur. İndi Azərbaycanda 100-ə yaxın siyasi məhbus var. Amma bu saydan bəlkə də yüz, min dəfə artıq potensial siyasi məhbus var... Bu adamlar fəal siyasi-ictimai işlə məşğul olmurlar. Amma baş verənlərə öz tənqidi, skeptik münasibətlərini də gizlətmirlər...

Açıq deyirlər ki, iqtidar-müxalifət oyunu onları bezdirib. Heç kimə inanmadıqlarını, heç kimə etibar etmədiklərini də gizlətmirlər. Eləsi var ki, öz cibində hətta hakim partiyanın biletini gəzdirir, özü də deyir ki, bunu iş yerində veriblər...

Müxalifətçilərə gəldikdə isə, onlar da bu seçkiyə maraq göstərmirlər. Əgər efir vaxtı versəydilər, platformaların divarlara yapışdırmağa imkan versəydilər bəlkə də maraq yaranardı. Heç olmasa, sözlərini deyərdilər. Hələki, söz demək istəyən, öz fikirlərini başqaları ilə bölüşmək istəyən adamlar var bu ölkədə...

Amma söz verən yoxdur. Ona görə də seçki seçkiyə oxşamır. Amma bu, hələ hamısı deyil. Bələdiyyə seçkisinə marağın yaranması üçün elə bələdiyyələrin özlərinə də bir əl gəzdirmək, onlara da adlarına layiq tutum, məzmun vermək lazımdır.

Dünyanın normal ölkələrində Azərbaycandakı kimi icra aparatları, mənzil-kommunal şəbəkəsi yoxdur. Bu işlərin hamısını bələdiyyələr görür. Azərbaycanda bələdiyyələr hansı statusa malikdir, onlar nə iş görür, elə bu da hamıya bəlli...

Dövlət adamları özləri etiraf edirlər ki, adı korrupsiya qalmaqallarında hallanan qurumlar arasında bələdiyyələr ön sırada gedir. Təsəvvür edirsinizmi, bələdiyyə-seçkili orqan və korrupsiya!.. Seçkili orqanın adının belə qalmaqallarda, korrupsiyada hallanması, ümumiyyətlə, qeyri-adi bir şeydir...

Seçki əsl seçki kimi keçirilsə, bələdiyyələrə əsl yerli səlahiyyətlər verilsə, onda bu strukturlara insanların etimadını qaytarmaq olar. Bələdiyyə əsl seçkilə formalaşsa onda onun çərçivəsində institusional etimadsızlıq- hamının hamıya nəzarəti olacaq, daha heç kim rüşvətə, korrupsiyaya baş vurmayacaq... Ən azı hamı bundan çəkinəcək, ehtiyat edəcək...

Onda nəinki adi seçicilərin, hətta müxalifət partiyalarının da bələdiyyələrə marağı yaranacaq. İndi tutaq ki, Türkiyədə deyilir ki, filan qədər bələdiyyəyə filan partiya nəzarət edir və bu, böyük uğur hesab edilir...

Türkiyə bir tərəfə, yaxın Gürcüstanda indikindən əvvəlki hakimiyyət hakimiyyətə bələdiyyə strukturlarından gəlməmişdimi? Amma Azərbaycanda indi bələdiyyələrin bir fiksiya olması bir tərəfə, hətta indiki şəraitdə belə onlara düzgün seçki keçirmək istəmirlər!..

Ona görə də dilxorçuluq hələ çox olacaq. Çünki daha insanlar heç nəyə inanmır və monoton, yeknəsəq siyasi tamaşaların iştirakçısı olmaq istəmirlər...

**Rusiya iqtisadi böhran dərinləşməkdədir. Ekspertlər əmindirlər ki, Rusiya yaxın zamanlarda xarici sərmayəçilər üçün cəlbediciliyini itirəcək. Bunun nəticəsi olaraq, Rusiya kapitalı ölkədən çıxarılmağa, Rusiyadakı xarici kapital isə böyük həcmdə geri dönməyə başlaya bilər, artıq can verən rublun yaxın aylarda daha sürətlə ucuzlaşması ehtimalı isə olduqca böyükdür.**

**Azər RƏŞİDOĞLU**



# Putin üçün "dar ağacı"

Rublun dəyərsizləşməsi ona gətirib çıxardıb ki, Rusiyanın neft, qaz və metallurgiya şirkətləri artıq böhran içindədirlər. Qida məhsullarının topdansatış qiymətlərinin yüksəldiyi də müşahidə olunur. Gündəlik istifadə edilən ərzağın qiyməti 20 faizdən çox yüksəlib.

Neftin ucuzlaşması isə fəlakətli iqtisadi göstəricilər vəd edir. Neft ucuzlaşmada davam edərsə, bu amil kifayət edirdi ki, Rusiya iqtisadiyyatı tam iflasa uğrasın.

Artıq Rusiya oliqarxları sərvətlərini ölkədən çıxartmağa başlayıblar. Rusiya elitasının 500 milyard dolları ABŞ banklarındadır, bu isə o deməkdir ki, Putinin ətrafı Qərblə əməkdaşlıqdan imtina edə bilməz.

Kreml sadə rusları dilənçiliyə sürükləyir. Belə bir vəziyyətdə olan Rusiya Krımdakı avantürasına milyardlarla rubl vəsait ayırdı. Rusiyanın səfalət içində olan yoxsul bölgələrinin payından qopardılaraq Krımın işğalına sərf edilən məbləğ yaxın günlərdə daha da arta bilər. Bu isə Rusiya bölgələrinin dilənçi vəziyyətinə salınması deməkdir. İndi hamını bir sual düşündürür - gələcəkdə ruslara nələr gözləyir? Əsasən bahalaşma, gəlirlərin azalması, rublun dollara və avroya məzənnəsinin daha da aşağı düşməsi qaçılmazdır.

Rusiyanın maliyyə bazarında bu gün panika əhval-ruhiyyəsi hökm sürməkdədir. Rusiya rublu müvafiq olaraq dollar və avroya münasibətdə 0,8% və 1,6% itirdi. Birja indeksləri, müvafiq olaraq, 0,4% və 1,5% azalıb.

Neftin qiymətinin aşağı düşməkdə davam edəcəyini proqnozlaşdıran Rusiyadakı "qırğılar" dolların satışına məhdudiyyətlər qoymağı təklif edirlər, lakin hamı anlayır ki, bu çox təhlükəli addım olardı. İstənilən bir qadağa "qara bazar"ın yaranmasına səbəb olur.

Vaxtilə İranda da dollara qadağan qoyulmuşdu, lakin bu uzun müddət davam edə bilmədi. İran valyutası olan rial darmadağın olandan sonra hakimiyyət sərbəst valyuta mübadiləsinə icazə verməli oldu və bu sahəni sadəcə olaraq nəzarətə götürdü. Bu da nəticə vermədi, insanlar dolları kisələrlə almağa və gizlətməyə başladılar. Nəticədə inflyasiya daha da dərinləşdi.

Ekspertlər mart ayına qədər Rusiyanı ağır iqtisadi böhranın bürüyəcəyini ehtimal edirlər. Birmənalı şəkildə ehtimal edə bilərik ki, daha çox ərzaq və benzin bahalaşmaqda davam edəcək. Bunun nə demək olduğunu isə əlavə şərh etməyə ehtiyac yoxdur. Durğunluq əvəzinə böyük iqtisadi böhran, iş yerlərinin əldən çıxması yaxın vaxtlarda Rusiyanı dağıda bilər. Putin belə bir suala cavab verməlidir - orta statistik Rusiya vətəndaşı Kremlin Krımı işğal siyasətinə, hiksinə görə maaşların, təqaüdlərin, iş yerlərinin azalmasına razılaşacaqmı?

Bir sözlə, Rusiyanı yaxın zamanlarda "məxməri inqilablar" bürüyə bilər. Bu, Kremli ölkədə tam diktatura yaratmağa sövq edə bilər. Bu isə Putini "dar ağacı"na yaxınlaşdıram amil olardı...

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014

# Gender bərabərliyi - demokratiyanın inkişafı üçün vacib amillərdən biridir

**Xalid Vahidoğlu 02 oktyabr 1978-ci ildə Kəlbəcər rayonunda anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filalogiya fakültəsini bitirib, daha sonra Bakı Dövlət Universitetində magistr təhsili alıb. Jurnalist fəaliyyətinə 1998-ci ildə başlayıb. 2002-ci ildən isə aktiv jurnalist fəaliyyəti ilə məşğul olub. Azərbaycan cəmiyyətində gender mövzusu ilə bağlı məlumatlandırmaya və diqqəti bu sahədəki problemlərə yönəltməyə daim ehtiyac olduğundan bu mövzuya daim önəm verib.**

### Mediada gender bərabərliyinin təbliği üçün vətəndaş cəmiyyəti institutları da medianı bu məsələlərə diqqət ayırmağa sövq etməlidir

Azərbaycan mediasında uzun illərdir gender stereotiplərinin qabardılmasının şahidi oluruq. Qadınlar və kişilərin cəmiyyətdəki yeri, onların funksiyaları və sosial rolları ilə bağlı formalaşmış təsəvvürlər mediaya təkcə mövzularla deyil, istifadə edilən dil, metaforalar və terminlər vasitəsilə də yeridilir. Media bilərəkdən və ya bilməyərəkdən qadınları kişilərlə müqayisədə daha əlverişsiz şəkildə işıqlandırır. Bununla da cəmiyyətdə qadınlarla kişilərin mövcud yeri haqda hökmran olan stereotiplər daha da qüvvətləndirilir. Mətbuat qadınlara gözəl və cazibədar olmaq, dadlı yeməklər bişirmək, evinin xanımı olmaq kimi vərdişlər aşılayır. Siyasətçi xanımların isə “kişi kimi” davranışları, “dəmir ledi” olmaq kimi xüsusiyyətləri qabardılır.

Artıq dünyada qəbul olunub ki, demokratiyanın inkişafının əsas pirinsiplərindən biri gender bərabərliyinin təmin olunmasıdır. İnkişaf etmiş ölkələrlə Azərbaycanın müqayisəli təhlili göstərir ki, bizdə demokratiyanın inkişafına mane olan mühüm amillərdən biri gender bərabərliyi mədəniyyətinin aşağı səviyyədə olmasıdır. Bu da öz növbəsində ölkənin dinamik inkişafını ləngitməklə, hüquqi dövlət quruculuğu prosesində insan potensialından tam şəkildə istifadə edilməsinə mane olur. Azərbaycanda kişilər hələ də cəmiyyətdəki dominant statuslarını qadınlarla bərabər imkanlara əsaslanmaqla bölüşmək istəmirlər. Qadınları daha çox özlərinə tabe vəziyyətdə görmək istəyən Azərbaycan kişisi ailənin sosial və məişət problemlərinin əskəriyyətinin qadınların çiyinlərinə yükləsə də, siyasi-ictimai həyatda ona rol vermək istəmir. Azərbaycan kişisi hesab edir ki, qadınlar - anamız, bacımız, sevdiyimiz və ürəyimizdə böyük yerə sahib birisidir. Amma ictimai-siyasi həyatda o, çərçivələnmiş və məhdud hüquqlara malik biri olmalıdır. Nəticədə, bu gün əksər Azərbaycan qadını mülkiyyət sahibi olmayan, ictimai nüfuza yiyələnməyən, dövlətdə və idarəetmədə səsi eşidilməyən bir kimsədir. Bu gün də cəmiyyətdə mövcud patriarxal sosial normalar, qadınların kişilərlə bərabər ölkənin ictimai-siyasi həyatında aktiv iştirak etməsinə imkan vermir. Kişi tabeçiliyinə əsaslanan cinslərarası münasibətdə qadınlar çox vaxt zorakılığın qurbanına çevrilirlər. Bu mənada inkişaf etmiş mülki cəmiyyətin formalaşması, hüquqi dövlət quruculuğu ilə bağlı tələblər, ictimai-siyasi proseslərdə gender münasibətlərinin ədalətli şəkildə tənzimlənməsini tələb edir. Belə bir şəraitdə qadınların ictimai-siyasi həyatda aktiv iştirakına mane olan amillərin kompleks araşdırılması, ortaya çıxarılmasına və qadınlara yönəlik hökumət siyasətinin formalaşmasına ehtiyac var. Gender bərabərliyinin təmin edilməsində stereotiplərin aradan qaldırılması, cinslərin cəmiyyətdə sosial rolları barədə insanların maarifləndirilməsi mühüm amil olduğundan bu məsələdə medianın rolunu da görməməzliyə vurmaq olmaz. Bəs gender bərabərliyinin təminatında medianın rolunun artırılması üçün hansı addımların atılması zəruridir?

### Ölkəmizdə bilərəkdən gender bərabərliyini kişi-qadın münasibətləri səviyyəsinə gətirirlər

Araşdırmalar göstərir ki, digər problem hökumətin bilərəkdən gender məsələsini bəsitləşdirməsidir. Gender bərabərliyi həm də modern bir ailə yapısı, dövlət idarəçiliyi deməkdir. Yəni insan yaşadığı əsrə adekvat olmalıdır. Amma ölkəmizdə bilərəkdən gender bərabərliyini kişi-qadın münasibətləri səviyyəsinə gətirirlər. Bunu kimlərsə şüurlu şəkildə edərək məsələni daraldır. Amma burada söhbət stereotiplərin ləğvindən yox, stereotiplərin dəyişməsindən getməlidir. Cəmiyyətdə nə qədər çox stereotip olursa, sən o qədər də çox dəyişə bilərsən. Cəmiyyətdə yeni məzmun gəlir bununla. Bu istiqamətdə çox analizlərə də ehtiyac var ki, medianın özü də anlasın ki, gender bərabərliyi deyəndə söhbət nədən gedir. Azərbaycan cəmiyyəti hələ feminizmi lazımınca keçməyib. Qadının önə çıxarılmasını hələ bizim cəmiyyətimiz keçməyib. Amma real həyatda, mətbəxdə, evdə qadın artıq önə çoxdan çıxıb. Ailədə qadın önə çıxıb və de-fakto hakimiyyət ondadır. Amma de-yure hələ hökmranlıq kişidə qalıb.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova isə gender bərabərliyi ilə bağlı vəziyyətin müsbətə doğru dəyişdiyi qənaətindədir:** «Əvvəlki illərlə müqayisədə son dövrlər Azərbaycanda icra hakimiyyəti başçılarının müavinlərinin böyük əksəriyyətini qadınlar təşkil etməkdədir».

### Media gender bərabərliyi anlamında nəyin dayandığını tam aydın dərk etməlidir

**Məsələyə münasibət bildirən hüquqşünas Ələsgər Məmmədli də o qənaətdədir ki, problemin səbəbi və həlli qanunvericiliklə bağlı deyil:** «Mətbuatı cəmiyyətdən üstün və ağıllı bir qüvvə kimi görmək olmaz. Cəmiyyətdə nə baş verirsə, mətbuat da onu işıqlandırır. Mətbuat zaman-zaman təbliğatla və ya əks-təbliğatla məşğul olur. Amma gender stereotiplərinin mətbuat tərəfindən yaradıldığını düşünmək olmaz. Qanunlar peşəkarlıq, obyektivlik kimi məsələləri tənzimlədiyindən mətbuat da bütün məsələlərə peşəkar şəkildə yanaşmalıdır».

**Ekspert Zeynal Məmmədli deyir ki, mediada gender bərabərliyi ilə bağlı məsələyə yetərincə diqqət ayrılmaması, əvəzində gender stereotiplərini qabardılmasının səbəbi mətbuatdan daha dərindədir:** «Bu, əslində cəmiyyətdəki dəyərlər və şüur səviyyəsindən irəli gələn problemdir. Biz hələ də XXI əsrdə orta əsrlər təfəkkürü ilə yaşayırıq. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Bu medianın özünün idarəçiliyindən asılı olan bir məsələdir. İlk öncə gender məsələsinin özünün nədən ibarət olması düzgün anlaşılmalıdır. Həm hökumət, həm vətəndaş cəmiyyəti institutları, həm də media gender bərabərliyi anlamında nəyin dayandığını tam aydın dərk etməlidir».

### Cəmiyyətdə inzibati yollarla nəyəsə nail olmağın mümkünsüzlüyü anlaşılmalıdır



**Ekspert Z.Məmmədli hesab edir ki, cəmiyyətdə gender məsələləri ilə bağlı mövcud olan dərin problemlər mətbuat tərəfindən işıqlandırılmalıdır:** «Mətbuat cəmiyyətdə gender stereotipləri ilə bağlı ənənəvi təsəvvürlərin dəyişilməsi üçün təbliğat aparmalıdır. Cəmiyyətdə qadının və kişinin sosial rolu ilə bağlı insanlara doğru informasiya verilməlidir. Bütün bu münasibətlərin müsbət mənada dəyişməsi üçün təbliğat aparılmalıdır. Media bununla bağlı təsəvvürlərin dəyişməsi üçün cəmiyyət qarşısındakı funksiyasını yerinə yetirməlidir. Artıq istər ailədə, istərsə də cəmiyyətdə inzibati yollarla nəyəsə nail olmağın mümkünsüzlüyü anlaşılmalıdır. Demokratik idarəetmənin inzibati idarəetmədən üstünlüyü cəmiyyətə təlqin edilməlidir. Bu dəyişmə olmadan dövlətin tipi də kişi tipi olur və gücə əsaslanır. Halbuki bunların könüllü seçimi lazımdır. Gender məsələsi faktik olaraq medianın bütün mövzularını əhatə etməlidir. Qadınların və kişilərin cəmiyyətdə sosial rolu, gender bərabərliyi xəbərlərdə, ədəbiyyatda, mətbuatda əks olunmalıdır. Amma bu gün nə mediada, nə kinoda bunu görmürük. Media həm də bu məsələdən pul qazanmağı bacarmalıdır. Amma Azərbaycanda siyasi monopoliya imkan vermir ki, media öz axarına qovuşsun. Əks halda, bu məsələlər boş söhbət olaraq qalacaq».

Əksər ekspertlər o qənaətdədir ki, mediada gender bərabərliyinin təbliği üçün həm hökumət, həm vətəndaş cəmiyyəti institutları, həm də media səmimi işləməlidir. Dövlət beynəlxalq miqyasda pis görünməmək üçün gender bərabərliyinə önəm vermək kimi imitasiyaya son verməlidir. Avtoritar təfəkkürlü olduğumuz üçün də bundan yaxa qurtara bilmirik. Düzdür, avtoritar quruluşlarda cəmiyyəti idarə etmək asandır, amma bu şəkildə irəliləmək mümkün deyil. Buna görə də cəmiyyət illərlə yerində sayır. Dioqnozu dəqiq qoymaq lazımdır ki, cəmiyyəti sağaltmaq olsun. Bütünlükdə cəmiyyət buna hazır deyil.

### Çıxış yolu mətbuatın demokratikləşməsində və peşəkarlaşmasındadır

Mediada gender bərabərliyinin təbliği üçün vətəndaş cəmiyyəti institutları da medianı bu məsələlərə diqqət ayırmağa sövq etməlidir. Həmin qurumların özləri media ilə bu mövzu ilə bağlı işləməlidir. Medianı inandırmaq lazımdır ki, bundan cəmiyyət və medianın özü də qazanacaq. Bu sahədə təbliğat işləri aparmaq və alimlərin, media nümayəndələrinin iştirakı ilə seminar xarakterli dəyirmi masalar keçirmək lazımdır. Belə müzakirələr gender bərabərliyinin təbliğinə yardım etməklə yanaşı, həm də jurnalistlər arasında bu sahə ilə bağlı məlumatlılıq dərəcəsini artırardı. Önəmli olan həm də birgə işləməyi bacarmaqdır. Yaranmış duruma görə medianı birtərəfli qınamaq da olmaz. Çünki media bu mövzu ilə bağlı sadəcə kimlərəsə meydan verə bilər. Bu meydandan necə istifadə etmək və cəmiyyətə hansı mesajları ötürmək isə həmin təşkilatların üzərində qalır. Bu kimlər olmadıqda isə media başlayacaq saralmağa. Bu gün də Azərbaycan mediası saralmağa başlayır. Bu gün mediamız ya sarıdır, ya bulvar. Bir fikir varsa bulvar, əks fikir varsa, amma həqiqət önəmli deyilsə, sadəcə maraq çəkmək sensasiya, ancaq qıcıqlandırmaq önəmlidirsə, bu da medianı saraldır. Bundan isə həm vətəndaş cəmiyyəti institutları, həm də media narazı qalır. Nə qədər ki, media məhz bazardan dolana bilmir, bu problemlər qalacaq. Media bazardan dolana bilmirsə, demək ölkədə digər məsələlərlə yanaşı, gender təfəkkürü də çox aşağı səviyyədədir. Çıxış yolu həm də mətbuatın demokratikləşməsində və peşəkarlaşmasındadır. Ancaq bu halda mətbuat hər şeyi olduğu kimi işıqlandıra və gender bərabərliyi məsələsində daha diqqətli olacaq.

**Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən "Counterpart İnternational"ın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən «CEDAW ƏMƏLDƏ» adlı layihəsi üçün hazırlanıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014



# İrəvan Türkiyənin Qarabağ çağırışını eşidəcəkmi?

## Rusiyalı analitik: "Ermənistan sülh üçün ən çox səy göstərməlidir, çünki buna onun hamıdan çox ehtiyacı var, indi onu öz xilasından cəmi bircə addım ayırır..."

**İki gün öncə Türkiyənin Qars şəhərində Azərbaycan, Gürcüstan və Türkiyə XİN başçılarının sammiti keçirildi. Görüşdə Elmar Məmmədyarov, Tamar Beruçaşvili və Mövlud Çavuşoğlu regionda mövcud geosiyasi durum, yeni hədələr və bu hədələrin önlənməsi üçün birgə fəaliyyət istiqamətləri müzakirə edildi. Təbii ki, bölgədə həllini tapmamış etnik-ərazi münaqişələri əsas diqqət mərkəzində saxlanıldı.**

Ən mühüm məqamlardan biri Türkiyə XİN rəhbərinin Ermənistana müraciəti oldu. Müraciətdə İrəvanın dövlətlərarası iqtisadi layihələrə qatılmaq imkanının hələ qaldığı və qonşuların Ermənistanı da öz çevrəsinə götürməyə hazır olduğu xüsusi vurğulanır.

**Sitat:** "Biz istəyirik ki, Ermənistan da Cənubi Qafqaz ölkələri zəncirinə qoşulsun ki, çatışmayan bir həlqə də tamamlansın. Ancaq bundan ötrü İrəvan öz qonşuları ilə problemləri nizamlamalı, ya da heç olmasa, bu yöndə addımlar atmalıdır. Biz Dağlıq Qarabağ probleminin, işğal altında ərazilər probleminin tezliklə həllini istəyirik. Ermənistan öz qonşularının sərhədlərinə və ərazi bütövlüyünə hörmət eləməlidir. Bu gün Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib və bu təkcə Azərbaycana qardaş ölkə olan Türkiyənin sözü deyil, BMT və Avropa Şurasının qətnamələrində əks olunmuş beynəlxalq birliyin mövqeyidir. Ermənistan, nəhayət, sülh üçün səylər göstərməlidir. Axı buna hamıdan çox onun ehtiyacı var".

**Türkiyə XİN başçısının bu müraciəti maraqla qarşılanıb. Məsələn, rusiyalı politoloq, "Vestnik Kavkaza" nəşrinin eksperti Andrey Petrov müraciəti pozitiv dəyərləndirməklə yanaşı deyir:** "Bu, İrəvana açıq bir çağırış və xəbərdarlıqdır ki, o, ölkəni regional əməkdaşlığa cəlb eləmək və öz iqtisadiyyatını inkişaf etdirmək üçün millətçi əsaslara söykənən təcrid siyasətindən imtina eləsin. Başa düşsün ki, bundan ötrü zaman ciddi şəkildə daralmaqdadır".

**Ekspertə görə, İrəvanla hərtərəfli əməkdaşlığa hazırlıq həmişə olub:** "Elə həmin Türkiyə Ermənistanla sərhədlərin açılması və münasibətlərin qaydaya salınmasından heç vaxt imtina eləməyib, bir şərtlə ki, Azərbaycan əraziləri işğaldan azad olunsun. Bundan əlavə, kuluarlarda tez-tez belə söhbətlər eşitmək olar ki, ilkin mərhələdə heç olmasa, Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun boşaldılması da kifayət edə bilər. Bunu bir daha Qarsda bəyan eləməklə Mövlüd Çavuşoğlu Ermənistana xatırlatmış oldu ki, özünün xilasından onu indi bircə, hətta elə də böyük olmayan siyasi addım, cəmi bicə siyasi iradə nümayişi ayırır".

**Politoloqun qənaətincə, Qarabağ münaqişəsinin praktik nizamlanması İrəvanın üzərindən işğalçı damğasını, Dağlıq Qarabağdan isə "fors-major region" statusunu götürər, Ermənistana Qafqazın iqtisadi xəritəsinə qayıtmaq imkanı verər, onu investisiyalarla və regional layihələrdə iştirakla təmin edərdi:** "Dağlıq Qarabağ bu halda, sadəcə, çiçəklənəcək. Erməni tərəfi son illər vaxt itirir. Hələ ki Ermənistan milliyyətçi ideologiya və siyasəti iqtisadiyyatdan və əməkdaşlıqdan üstün tutur, onun qonşuları isə erməni ərazilərindən yan keçməklə bölgə üçün mühüm projeləri həyata keçirir. Bakı-Tiflis-Ceyhan neft kəməri çoxdan inşa edilib və hələ ki yeni neft xəttinə ehtiyac yoxdur. Bakı-Tiflis-Qars dəmir yolu da tikilib qurtarmaq üzrədir. Həmçinin on illiklərə hesablanmış "Cənub qaz dəhlizi" layihəsi bütün gücü ilə reallaşmağa başlayıb. Bütün bunları İrəvan artıq əldən verib. Əgər Azərbaycan torpaqlarının işğalı və bu işğaldan doğan izolyasiya davam eləsə, o zaman Böyük Qafqaz üzrə qonşuların strateji layihələrdən Ermənistana təklif edəcəkləri heç nə qalmayacaq, sadəcə, bütün iqtisadi infrastrukturu Ermənistansız quracaqlar".

**Analitikə görə, sərhədlərin açılması və insanların və malların sərbəst yerdəyişməsi Bakı ilə Naxçıvan arasında, Azərbaycanla bütövlükdə Türkiyə arasında nəqliyyat əlaqəsini də xeyli dərəcədə sadələşdirərdi:** "Eyni zamanda Türkiyə Rusiyaya daha etibarlı və birbaşa, əlverişli yerüstü marşrut əldə edər və hərbi Gürcüstan yolunun kaprizlərindən qurtulardı. Bu mənada Güney Qafqazda bütün iqtisadi prosesləri əngəlləyən və mürəkkəbləşdirən "dondurulmuş" və çoxillik müharibənin bitməsini istəməkdə qəribə heç nə yoxdur".

Rusiyalı ekspertin qənaətləri ilə razılaşmamaq mümkünsüzdür. Ancaq bir məsələ var ki, Ermənistan Qarabağ konfliktində müstəqil söz sahibi deyil. Onun ipi Rusiyanın əlindədir. Bundan da acınacaqlısı isə odur ki, İrəvan, ermənin toplumu həmin ipdən qurtulmaq üçün hər hansı səy göstərmir, əksinə, Moskvaya daha güclü bağlanmağa çalışırlar. Putinin Avrasiya layihələrinə işğalçı ölkənin qoşulması buna bariz sübutdur.

# Həmsədrlər nazirləri bir araya gətirmək üçün Berlində məsləhətləşəcəklər

## Bazeldə XİN başçılarını görüşdürə bilməyən vasitəçilər Almaniyada nə qərar verəcəklər?

**ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorlik (ABŞ), İqor Popov (Rusiya) və Pyer Andrie (Fransa) Berlində görüş keçirəcəklər. "Anspress"in məlumatına görə, bu barədə amerikalı həmsədr twitter səhifəsində yazıb.**

O bildirib ki, Berlinə gedir və vasitəçilər Dağlıq Qarabağ münaqişəsini müzakirə etmək üçün Almaniyanın rəsmi şəxsləri ilə görüşəcəklər.

Bir müddət öncə amerikalı həmsədr tvit yazaraq tərəfləri qarşılıqlı dialoqa və diplomatiyaya çağırmışdı.

Sonuncu dəfə həmsədrlər ATƏT-in Xarici İşlər Nazirləri (XİN) Şurası çərçivəsində dekabrın 4-də Bazeldə bir araya gəlmişdilər. Daha sonra isə onlar ayrı-ayrılıqda Azərbaycan və Ermənistanın XİN başçıları ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə ediblər.



Son illərdə ilk dəfə olaraq bu cür toplantılarda Azərbaycan və Ermənistan XİN başçıları görüşməyiblər. Səbəbi açıqlanmasa da, bu görüşün baş tutmaması həmsədrlər üçün o qədər də gözlənilən olmayıb. Ekspertlərin fikrincə, indi çox güman ki, Berlin görüşündə həmsədrlər daha çox XİN başçılarını bir araya gətirmək üçün müzakirələr aparacaqlar. Mümkündür ki, həmsədlərə görüş üçün məkan və zaman təklif olunsun. Həmsədrlərin hətta nazirləri belə bir araya gətirə bilməmələri onların fəaliyyətinin effektiv olmadığı anlamına gəlir və belə fikirlər var ki, onlar bu durğunluğu aradan qaldıraraq XİN başçılarının görüşünü təşkil edəcəklər.

Xatırladaq ki, Bazeldə XİN başçılarının görüşü baş tutmasa da, Minsk Qrupunun həmsədri olan ölkələr toplantı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı birgə bəyanatla çıxış etmişdilər. Bəyanatda bildirilirdi ki, həmsədr ölkələr münaqişənin sülh yolu ilə həllinə dair mövqelərinə sadiqdir: **"Münaqişənin hərbi yolla həlli yoxdur. Biz tərəfləri zorakılıqdan çəkinməyə və münaqişənin qəti həlli üzərində fəal çalışmağa çağırırıq".**

Sənəddə il ərzində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində zorakılıq hallarının artmasından narahatlıq ifadə edilirdi: **"İyul və avqustda hərbi fəaliyyətlər ciddi itkilərə səbəb olub, tərəflər arasında gərginliyi artırıb və qarşılıqlı etimadsızlığı dərinləşdirib. Tərəflər atəşkəs rejiminin möhkəmləndirilməsi üçün əlavə tədbirlər görməli və sülh danışıqlarının inkişafı üçün əlverişli mühit yaratmalıdır. 12 noyabrda hərbi helikopterin vurulması gələcəkdə bu cür hadisələrin baş verməməsi üçün gərginliyi azaldacaq və etimadı bərpa edəcək tədbirlərin vacibliyini göstərir. Biz tərəflərə müraciət edərək gərginliyin artmasının qarşısını almaq üçün onları səbr nümayiş etdirməyə çağırırıq. Biz eyni zamanda tərəfləri humanitar problemləri 2010-cu ilin oktyabrında Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Həştərxan görüşünün yekun bəyanatının ruhuna uyğun həll etməyə səsləyirik".**

Bəyanatda qeyd olunurdu ki, Azərbaycan və Ermənistan prezidentlərinin 2014-cü ildə Soçi, Nyuport və Parisdə keçirilmiş görüşləri tərəflər arasında ən vacib kommunikasiya kanalını canlandırıb: **"Biz prezidentlərin gələn il dialoqu aktivləşdirmək barədə Parisdə əldə etdikləri razılığı alqışlayırıq. Tərəflərin fikir ayrılıqlarını aradan qaldırması, etimadı bərpa etməsi və öz öhdəliklərini yerinə yetirərək münaqişənin yekun həllinə aparıb çıxaracaq danışıqlar prosesinə başlaması üçün fürsət yaranıb".**

Bu arada Fransanın Ermənistana yeni təyin olunmuş səfiri Jan Fransua Şarponte Ermənistan parlamentinin spikeri Qalust Saakyanla görüşdə ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin həllində üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını deyib.

"Anspress"in məlumatına görə, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş verən son hadisələr Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə aparılan danışıqlarda irəliləyişə imkan yaratmır.

Səfir vurğulayıb ki, Fransa öz öhdəliyinə uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına tərəfdardır və bu prosesə əlindən gələn dəstəyi verməyə hazırdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Teymur HƏSƏNLİ

# "Atlant"dakı silahlı məmur oğlu kimdir?

## İstirahət mərkəzindəki "razborka"nın şok görüntüləri yayıldı

**Bu ilin avqust ayında "Atlant" istirahət mərkəzində baş verən silahlı insidentlə bağlı yeni və şok detallar ortaya çıxıb. Virtualaz.org saytı məşhur istirahət mərkəzində baş verən insidentlə bağlı videogörüntüləri əldə edib.**



Xatırladaq ki, avqustun 2-də "Atlant" istirahət mərkəzində silahlı insidentin baş verməsi haqda xəbərlər yayılmışdı. Bəzi saytlarda isə bu silahlı insidentdə iştirak edən şəxslərdən birinin Quba Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Ağayevin oğlunun olması haqda məlumatlar yer almışdı.

Lakin icra başçısı oğlunun xaricdə olduğunu deyərək mətbuatda yer alan xəbərləri təkzib etdi. Halbuki icra başçısının mətbuat katibi Arif Yusifov isə hadisə baş verən zaman başçının oğlunun evdə olduğunu demişdi.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə hadisənin silahlı incident olmadığını, yalnız iki şəxs arasında qısa mübahisə olduğunu demişdi.

Virtualaz.org saytının əldə etdiyi videogörüntülərdən isə aydın olur ki, hadisə heç də iki nəfər arasında baş verən qısamüddətli mübahisə deyil. Bunu redaksiyamıza hadisəyə şahidlik edən şəxslər də təsdiqləyib.

Belə ki, adları məlum olmayan iki tərəf arasında qız üstündə mübahisə düşür. Gərginlik o həddə çatır ki, tərəflərdən biri maşınından odlu silahı, ov tüfəngini götürərək söhbəti "xırdalamağa" gəlir.

Əldə etdiyimiz videogörüntüdə silahdan atəş açılması müşahidə edilmir. Lakin şahidlərin dediyinə görə, onlar bir neçə dəfə atəş səsi eşidiblər. Bu görüntülər isə atəş açılandan sonra lentə alınıb.

Görüntülərdə olan qırmızı köynəkli şəxs əlində olan ov tüfəngi ilə mübahisə etdiyi sarı köynəkli şəxsi hədələyir. Silahlı şəxsi istirahət mərkəzinin mühafizəçiləri nə zərərsizləşdirir, nə də ki, ona müdaxilə edirlər. Silahlı şəxslə mübahisə edən sarı köynəkli şəxsi isə bir qız sakitləşdirməyə çalışır.

Hadisəni izləyən digər müştərilərin də görüntülərdəki danışığından başa düşmək olur ki, onlar da mühafizəçilərin tərəfləri sakitləşdirməməsindən narahatdırlar. Mübahisə edən tərəflər bir-birilərini söyüş söyərək hədələyirlər. Sonra tərəflər mübahisə edərək istirahət mərkəzindən çölə çıxırlar. Əlisilahlı şəxs qarşı tərəfi məsələni həll etmək üçün başqa yerə dəvət edir.

Bu video onu sübut edir ki, "Atlant"dakı hadisə heç də iki tərəf arasında olan kiçik mübahisə deyil. Əlində silah ailəli şəxslərin də olduğu istirahət mərkəzinə girən şəxs havaya atəş açır, ətrafında olan insanlara qorxu yaşadır, mübahisə etdiyi şəxsi və ya şəxsləri hədələyir. Lakin hüquq-mühafizə orqanları bunu "sadə mübahisə" kimi qiymətləndirir. Həqiqət də burasındadır ki, bu silahlı şəxs hansısa məmurun övladıdır və yanında gəzdirdiyi odlu silahla mübahisə etdiyi şəxsi çox rahat bir şəkildə hədələyir. Və onun bu addımına istirahət mərkəzinin mühafizəçiləri, rəhbərliyi heç bir söz deyə bilmir.

**Hüquq-mühafizə orqanları isə hadisəni sadəcə kiçik mübahisə olduğunu deyərək bağlamağa çalışır. Silahlı insidentdə iştirak edən tərəflərin kimliyi isə məlum deyil.**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34





# "Ölüm körpüsü" mühasirəyə alındı

**Metronun "Koroğlu" stansiyasının yaxınlığında yerləşən körpüdən özünü ataraq intihar edənlərin sayının artdığını görən müvafiq qurumlar əməli işə keçiblər. ANS TV-nin məlumatına görə, körpünün hər bir tərəfində polis əməkdaşları növbə ilə keşik çəkirlər. Bəzən isə "ölüm körpüsü" adı ilə məşhurlaşan və "Koroğlu" metro stansiyasının yaxınlığında yerləşən bu körpüyə son vaxtlar problemləri olanlar üz tuturlar. Onların bəzilərini FHN-in fikirlərindən daşındıra bilsələr də, bəziləri üçün bu mümkün olmayıb. Bu bir növ adi hal alıb desək yanılmarıq.**

İntihara ilk cəhd isə yanvar ayında qeydə alınıb. 27 yaşlı Rafael Hümbətov ilk belə addım atmışdı. Özünü körpüdən atan gənc xəstəxanaya aparılsa da, onun həyatını xilas etmək mümkün olmamışdı. Körpüdəki intiharlar da elə bundan sonra başladı.

Psixoloqlar isə bunu insanların gündəlik problemləri ilə əlaqələndirirlər. Psixoloq Elnur Rüstəmov deyir ki, özünə, öz problemlərinə ictimai diqqət çəkmək istəyənlər məhz bu körpünü seçirlər. Onlar öz etirazlarını hər kəsə bildirməklə edirlər. Onun sözlərinə görə, hər kəsin problemi var, amma bu o demək deyilki hər kəs özünü öldürməlidir. Bunun üçün insanlar məsələlərə soyuqqanlı yanaşmalıdırlar. O, insanlar arasında maarifləndirmə işlərinin aparılmalı olduğunu və onlara hansısa bir cəza verilməli olduğunu deyir. "Əks halda, bu cür hallar artacaq", - deyə psixoloq bildirib.

Odur ki, problemləri özünü öldürməklə deyil, onları aradan qaldırmaqla həll edin.

# Azərbaycanda narkotikdən asılı olan məktəblilər var

## Leyla Yolçuyeva: "Son 5 ildə narkotik istifadəçilərinin yaş senzi 30-dan 17-yə düşüb..."

**Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi Həzi Aslanov "Narkomanlığa düçar olmuş uşaqların və qadınların ailədə və cəmiyyətdə hüquqlarının müdafiəsi" ilə bağlı beynəlxalq tədbirdə çıxışı zamanı maraqlı fakt açıqlayıb.**

Deyib ki, narkocinayətkarlıqla əlaqədar məktəblərin, yaşayış sahələrinin ətrafında mütəmadi olaraq reydlər keçirirlər: "Mütəmadi olaraq məktəblərin ətrafında olan narkopritonlar və narkotiklə bağlı digər cəhdlərlə əlaqədar müəyyən əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Bizə müraciətlər də onunla bağlı olur ki, hansısa məktəbin həyətində istifadə olunmuş "şpris" var. Uşaqlar və valideynlər tərəfindən belə hallar olanda dərhal reaksiya verilir".

"Yeni Müsavat"ın əməkdaşı idarə rəisinin fikirlərinə Narkotiklərə Qarşı Milli Təbliğat Ofisi rəhbər müavini **Leyla Yolçiyevanın** münasibətini öyrənib. Yolçuyeva bu sahədə durumun xoş olmadığını söyləyib: "Bu gün Azərbaycanda narkotik asılılığı yaşayan ali təhsil müəssisələrinin tələbələri, hətta şagirdlər də var. Ölkədə narkotikə meyllilik artıb və xəstə narkoistifadəçilərin sayı da sürətlə çoxalmaqdadır".

**Onun sözlərinə görə, qloballaşan dünyada siyasi proseslər sürətlə dəyişdiyi kimi, narkotiklərin dövriyyəsi, həm də daşınması siyasəti də durmadan dəyişir:** "Azərbaycan narkotiklərin tranzitlə daşındığı ölkələr sırasındadır. Xüsusilə cənub, nəzarətsiz sərhədlərimizdən narkotikləri qaçaqmal kimi keçirməyə cəhdlər intensivdir. Qonşu dövlətlər narkotiki şimal bazarlarına daşımağa israrla çalışır. Belə bir zamanda Azərbaycanın hüquq-mühafizə orqanlarının daha da gücləndirilmiş iş qrafiki ilə işləmələri zəruridir".

**L.Yolçiyeva 2013-cü ilin rəsmi statistikasına istinadən durumu dəyərləndirib. Deyib ki, artıq şagirdlər də narkotik vasitə ilə bağlı cinayət məsuliyyətinə cəlb olunurlar:** "Hazırkı durum bu sahəyə xüsusi diqqət ayrılmalı olduğunu göstərir. Xüsusilə son 5 ildə narkotik istifadəçilərinin yaş senzi 30-dan 17-yə düşüb. Aparılmış araşdırmalar zamanı isə regionlarda, xüsusilə cənubda hətta 14-15 yaşlı yeniyetmələrin ağır narkotik maddələrdən istifadə etdiklərinin şahidi olursan. Orta məktəblərdə, ali təhsil müəssisələrində, habelə yeniyetmə və gənclərin daha sıx məskunlaşdığı yerlərdə narkomafiyanın əlaltıları, narkoişbazlar və dillerlər müxtəlif şirnikləndirici vasitələrlə narkotiklərin yayılmasını təşviq edirlər. Məktəbliləri və azyaşlıları müəyyən vasitələrlə bu yola cəlb etmək daha asandır. Son ilin statistikasına əsasən cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin 4-ü məhz həddi-büluğa çatmayan şagirdlərdir".

**Ofis rəhbərinin müavini deyir ki, narkotik vasitələrə meylliliyin aradan qaldırılması üçün insanlar düzgün maarifləndirilməli, reabilitasiya mərkəzləri yaradılmalıdır:** "Maarifləndirmə, anti-təbliğat sahəsində vahid kurikulum tətbiq olunmalıdır. Orta məktəblərdə şagirdə və ya ali təhsil müəssisələrində tələbə gənclərə "narkotik pisdir, rəngarəng ölümdür" və s. sloqanlardan istifadəni arxivləşdirmək lazımdır. Təəssüflər olsun ki, pərakəndə antinarkotik təbliğatımız bugünkü qeyri-müəyyən vəziyyətlə bizi üz-üzə qoyub".

**E.MƏMMƏDƏLİYEV**

# Milyon, milyon, milyon... sərvəti olan azərbaycanlılar



## Bir daha azərbaycanlı zənginlər haqda

***

**Vətən mənə milyonçu desə, nə dərdim...**

Pul haqqında dahilərin onlarla maraqlı deyimləri var. Məsələn, Bertold Averbax deyib ki, çox pul qazanmaq igidlik, onu saxlamaq müdriklik, məharətlə xərcləmək isə incəsənətdir. Qabriel Qarsiya Markes isə hesab edib ki, “pul-şeytanın əlamətidir”. Azərbaycan xalqının müdrik atalar sözündə də pulla bağlı deyəsən, ən çox işlədilən yalnız, bir deyim var: “Pul əl çirkidir”.

Pul əlbəttə ki, əldən-ələ keçəndə çirklənir, köhnəlir və sonda ya cırılır, ya da tədavüldən çıxarılır. Amma elə pullar da var ki, onları heç kimi görmür, cibdə gəzdirilmir, heç çirklənib köhnəlmir də... O pullar dəyəri milyonlarla ölçülən villalara, dəbdəbəli hotellərə, maşınlara, bahalı daş-qaşa yatırılır, pullarda bankdan-banka gəzir, çirklənmir, kirlənmir... Bax o azərbaycanlılar üçün pul heç də əl çirki deyil...

Söhbətin kimlərdən getdiyini anladınız: azərbaycanlı milyarderlərdən...

Azərbaycan xalqı üçün “özgənin pulunu saymaq” yaxşı iş sayılmır. Amma onlar bizdən uzaqda yaşasalar da, Allahın salamını verə bilməyəcək qədər əlçatmaz olsalar da, pullarının miqdarını hamı bilir. Birimiz köks ötürür, birimiz “xeyrə xərcləsinlər” deyir, o birimiz...məşhur sovet yazıçısının şeirini dəyişərək “baxın a, yana-yana qalın a, onlar azərbaycanlı milyarderdirlər” deyib qürrələnir də. Kim nə deyir-desin, azərbaycanlılar pul qazanmağı sevirlər, xərcləməyi lap sevirlər, Vətəndə xərcləməyə isə nədənsə, ürəkli deyirlər...Yeqin pulu burda qazanmayıblar deyə, “acıq çıxırlar”. Nə isə, giriş üçün kifayət edər, “keçək pullarını” saymağa...

**“Qızıl üçlük”: 16,8 milyard...**

Sərvəti milyardlarla ölçülən azərbaycanlıların böyük əksəriyyəti qonşumuz Rusiyada yaşayırlar. Bu, tarixi bir ənənəyə söykənir. Rus dilində “zdrasti”dən başqa bir söz bilməyən çox adam Rusiyadan pullu oğlan kimi qayıdıb. Amma qayıtmayanlar da var kı, onları pullu oğlan demək xətirlərinə dəyər.

“Forbes”in son məlumatına görə, Rusiyada yaşayan üç azərbaycanlı milyarderin ümumi sərvəti 16,8 milyard dollar təşkil edir. Bu “üçlük” Vahid Ələkbərov 13,6 (milyard dollar), Araz Ağalarov (1,8 milyard dollar) və Fərhad Əhmədovdan (1,4 milyard dollar) ibarətdir.


Vahid Ələkbərov


Fərhad Əhmədov


Zarah İliyev


Qod Nisanov

Vahid Ələkbərov uzun müddətdir Rusiyanın “LUKoil” Neft Şirkətinə rəhbərlik edir. Ruslar nədənsə, ona Vaqit deyir. V.Ələkbərov Bakıda anadan olsa da, atası əslən Cənubi Azərbaycandandır. Keçmiş AZİ məzunu olan V.Ələkbərovun Azərbaycandakı biznesi yalnız “LUKoil”in bir neçə YDM ilə məhdudlaşır. Son aylar o, Ukrayna və bir sıra Avropa ölkələrində, eləcə də Səudiyyə Ərəbistanında şirkətinə məxsus obyektləri satması ilə gündəmə gəlib. Amma maliyyə itkilərinə baxmayaraq, o, hələ də Rusiyada yaşayan ən zəngin azərbaycanlı iş adamıdır. Onu yeganə övladı atası Yusifin adını daşıyır. Hələ ötən il V. Ələkbərov bəyan etmişdi ki, özünün bütün səhmlərini yeganə oğlu Yusifə bir şərtlə vəsiyyət edib ki, bu səhmlər satıla və bölünə bilməz. Məqsəd isə şirkətin daha uzun illər stabilliyini təmin etməkdir...


İsgəndər Xəlilov

1955-ci ildə Bakıda anadan olan Araz Ağalarov “Krokus İnternəşnl” şirkətlər qrupuna rəhbərlik edir ki, varidatı 1,5 milyard dollardır və o, son illər Rusiyada ən çox gəlir gətirən biznesmen kimi reytinq qazanıb. Bir müddət əvvəl Azərbaycandakı biznesi haqda suala milyarder belə cavab vermişdi: “Bizim qohumluq əlaqələrimiz var. Biznesim yoxdur, çünki orada biznes qursaydım, bu, mətbuatda mənfi qarşılanardı və belə çıxacaqdı ki, ortada himayəçilik var”.

Fərhad Əhmədov 1955-ci ildə Bakıda anadan olmasına baxmayaraq, əslən göyçaylıdır. F.Əhmədovun atası sovet dövründə Göyçay Konserv Zavodunun direktoru olub. F.Əhmədov Bakını yeniyetmə olarkən - 15 yaşında tərk edib, məktəbdə təhsilini yarımçıq qoyub və 1969-cu ildə Rusiyaya gedib. Hazırda varidatı 1,4 milyard dollar təşkil edir. 2009-cu ildə o, Azərbaycana da investisiya yatırmağa başlayıb. O, vaxtilə atasının rəhbərlik etdiyi zavodun bazasında Göyçayda yaradılan müəssisəni almaqla bu sahəyə də investisiya qoyub. Onun “Aznar” zavodunun yenidən qurulması üçün təqribən 32 milyon dollar investisiya qoyduğu bildirilir. Bu yaxınlarda məlum olub ki, dünyanın ən böyük ekspedisiya yaxtasının sahibi Roman Abramaviç *(onun kim olduğunu deməyə ehtiyac varmı?)* “Luna”nı *(bu söz latın dilində də, rus dilində də eyni mənanı verir - Ay)* Fərhad Əhmədova satıb. “Luna” dünyanın ekoloji cəhətdən ən təmiz gəmilərindən biridir. Yaxtada bütün tullantıların emal edilməsi üçün ən müasir avadanlıqlar quraşdırılıb. “Luna” həm də dünyanın ən təhlükəsiz yaxtalarındandır. Yaxtada praktiki olaraq bütün təhlükələrə - yanğından tutmuş dəniz quldurlarına qədər hər cür təhlükəyə qarşı müvafiq tədbirlərin görülməsi imkanları nəzərdə tutulub.

**“AST Telman”ın sərvəti necə “sıfıra” düşdü?**

Adı tez-tez müxtəlif borc qalmaqallarında gündəmə gələn Telman İsmayılov “bərkgedən” milyarderlər siyahısında “autsayder”dir. 2008-ci ilə kimi Telman İsmayılov ən nüfuzlu Moskva biznesmenlərindən olub. Onun AST qrupu qalmaqalla sökülən “Çerkizov” bazarını, “Voentor” binasını, Yeni Arbatda yerləşən “Praqa” restoranını və Moskva ətrafı 3 min hektara yaxın ərazini nəzarətində saxlayırdı. Lakin 2008-ci ildə hüquq-mühafizə orqanları “Çerkizov” bazarında 2 milyard dollar qiymətində qaçaqmal qeydə aldı. Ticarət sahəsini bağladılar, İsmayılov özü isə Türkiyəyə yerləşdi. Onun Antalyada tikdirdiyi “Mardan Palace” hoteli 1,4 milyard dollara başa gəlib. “Forbes” hazırda onun sərvətini cəmi 0,75 milyard dollar dəyərində qiymətləndirir.

1968-ci ildə Bakıda anadan olan “Palmali” şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov əslən Masallı rayonunun Miyankü kəndindədir. M.Mənsimovun adı Türkiyənin “Hürriyet” qəzetinin ölkə milyarderlərinin 22 nəfərlik son siyahısında var. “Palmali” Holdinqin rəhbərinin 1.3 milyard dollar sərvəti olduğu qeyd olunur və 18-ci sırada qərarlaşıb. Azərbaycanda qida sektoruna sərmayə qoyan Mübariz Mənsimovun biznesinə görə zaman-zaman rəqibləri tərəfindən ciddi təzyiqlərə məruz qaldığı da deyilir.

“Xəzər Lənkəran” futbol klubunun fəxri prezidenti olan M.Mənsimov idmana da yaxından maraq göstərir.

**Quba təkcə alması ilə deyil, həm də milyarderləri ilə tanınır**

Qod Nisanov da gəncdir. O, 1972-ci ildə Qubada yəhudilər yaşayan Qırmızı qəsəbədə anadan olub. 42 yaşı var. Bakıda hüquq təhsili alıb. Var-dövlətini özü qazanıb. Rusiya vətəndaşıdır. Moskvada yaşayır. Evlidir, 3 uşağı var. “Forbes”in milyarderlər siyahısında 472-ci yerdədir.

Daha bir azərbaycanlı milyarderlər Zarah İliyev 1966-cı ildə Qubada doğulub, Qod Nisanovun kəndçisidir. 47 yaşlı Zarah İliyev Rusiya vətəndaşıdır. Moskvada yaşayır. Evlidir, 2 uşağı var. “Forbes”in milyarderlər siyahısında 430-cu yerdədir. Ötən il Zarah İliyevin qardaşı Yaroxum İliyevin Bakıdakı zavodu sökülüb.

Metronun “Koroğlu” stansiyası yaxınlığında yerləşən “Gön-Dəri” zavodu İliyevlərin Azərbaycandakı əsas biznesi sayılırdı.

Bu yaxınlarda Zarah İliyev və Qod Nisanovun sahibi olduğu 5 ulduzlu “Radisson Royal Ukraine Hotel”i 2013-cü il üzrə Avropanın ən yaxşı biznes hoteli kimi beynəlxalq “World Travel Awards” mükafatı alıb. Jurnal bu mükafatın səviyyəsinə görə “Wall Street Journal” tərəfindən Oskar mükafatı ilə müqayisə edildiyini xatırladır və bildirir ki, hotel biznesində bu, ən yüksək mükafat sayılır.

Z.İliyev Rusiya prezidenti Vladimir Putinin tələbəlik dostu, azərbaycanlı milyarder İlham Rəhimovla da biznes ortağıdır.

İlham Rəhimov 1951-ci ildə Tovuzda anadan olub.

Rusiya prezidentinin yaxın dostu kimi tanınan iş adamı İlham Rəhimov bu ilin aprelində “Forbes” jurnalının Rusiyanın 2014-cü il üzrə ən varlı biznesmenlərinin siyahısına düşüb. Onun 0,5 milyard dollar sərvətlə sıralamada 187-ci pillədə qərarlaşmışdı.

**Terminal alan milyarder**

Bakıda geniş biznes şəbəkəsi olan azərbaycanlı oliqarx İsgəndər Xəlilov çoxdan bu cür siyahılara düşmür, ya da çox ön mövqedə deyil. O, Azərbaycan vətəndaşı olsa da, Rusiya ilə sıx bağlıdır. Məsələn, bu ilin mayında o, Rostov vilayətində neft terminalı alıb. “Kurqanneftprodukt” ASC-yə məxsus olan Taqanroq Neft terminalı 1 milyard 600 milyon rubla (təxminən 50 milyon ABŞ dolları) “İSR Trans”a satılıb.

Məlumata görə, İsgəndər Xəlilov Rostov şəhərindəki “Redisson” hotelini də öz biznes şəbəkəsinə daxil edib.

Rusiyada milyarderlərin etnik tərkibi haqda da maraqlı statistika var. Siyahıda ilk pilləni rus əsilli milyarderlər tutublar. Onların ümumi sərvəti 165 milyard dollar təşkil edib. Siyahıda yəhudilər 2-ci (122,3 milyard dollar), ukraynalılar 3-cü (70,4 milyard dollar), tatarlar 4-cü (9,2 milyard dollar), ermənilər 5-ci (21 milyard dollar), dağ yəhudiləri isə 10,6 milyard dollar sərvətlə 6-cı pilləni tutublar. Siyahıdakı növbəti pillələri azərbaycanlılar, inquşlar, çeçenlər, avarlar və özbək milyarderlər tutublar.

Siyahıdakı etnik milyarderlərin ümumi sərvəti 481,15 milyard dollar təşkil edib.

❑ Xəbər xidməti


Mübariz Mənsimov


Telman İsmayılov

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014




# Qəflətdən oyanmağa macal tapmalı

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim!**
**Salam olsun Hüseynə (ə)!**
**Salam olsun Hüseynin (ə) əziz və qəhrəman silahdaşlarına!**
**Salam olsun bütün Kərbəla və Aşura yükünü daşıyan və o ağrıları öz məsuliyyətləri ilə aşıb keçən Kərbəlada olan pak ailələrə!**
**Salam olsun dodaqları təşnə olan Kərbəla körpələrinə!**
**Salam olsun dünyanın hər yerində İmam Huseyn (ə) üçün iki ay müddətində əzadar olan Hüseynsevərlərə!**
**Salam olsun əyyamın əvvəlindən sonuna qədər əzadar olmaq niyyəti ilə qara köynəklərini, qara hicablarını geyinən Hüseyn (ə) aşiqlərinə!**



Həmd olsun Allaha ki, Məhərrəm-Səfər əyyamını yaşamaq səadətini bizlərə nəsib etdi. Artıq bu mübarək əyyamın Ərbəin mərhələsinə - İmam Hüseynin (ə) şəhadətinin 40-cı gününə yaxınlaşmaqdayıq. Dünyanın hər bir yerində bu nurani əyyam geniş əzadarlıqlarla yaşadıldı. Bizlərə də nəsib oldu ki, bu əzadarlıqlarda müəyyən qədər iştirak edə bilək.

### Kərbəla öyrədir ki, iman gətirənlər qəflətdə olanda nə baş verir

Kərbəla məktəbinin içərisində olan dərslərə diqqət etdikdə, bir tərəfdən Kərbəla çölündə baş vermiş müxtəlif hadisələrə, digər tərəfdən isə bunlardan çıxan ümumi məsələlərə nəzər salmaq olar. Bir neçə bəhsimizdə Kərbəla məktəbini Aşuradan öncə və ondan sonra baş vermiş hadisələr fonunda təhlil etdik. Qədir-Xum və Zühur arasında Aşuranın yerinə diqqət etdik. Aşuranın əslində haradan başlamasına və haraya qədər gedəcəyinə diqqət çəkdik. Bu bəhsimizdə isə bir qədər Aşuradan çıxan mənəvi islahatımızla bağlı dərslərə toxunacayıq.

Kərbəla məktəbinin bizlərə öyrədəcəyi ən ciddi məsələlərdən biri bundan ibarətdir ki, insan mümkündür ki, müsəlman olsun, iman gətirsin, bir çox həqiqətləri bilsin, amma başı dünyaya qarışa bilər. İnsan qəflətə düşə bilər, yaşadığı dönəmdə o qədər başı qarışa bilər ki, hətta gəlib zamanının İmamının (ə) qarşısını kəsər, qarşısının kəsilməsində iştirak edə bilər. O qədər başı qarışar, qəflətdə olar ki, adi vaxtda, iman yüklü vəziyyətdə Mövlasının (ə) xidmətində olmağın həsrətində olduğu halda, belə vəziyyətdə Mövlanın (ə) xidmətində olmaqdan qaçar. Bəhanə axtarar ki, İmam (ə) ilə üz-üzə gəlməsin. İmam (ə) açıq formada, açıq mətnlə deyir, insanlara çatdırır ki, haqla batil ayrılıb, seçim etmək zamanıdır. İnsanları onun sırasında yer tutmağa çağırır. Amma görürük ki, insanların çoxu bu seçimdən qaçırlar.

### Hürrün timsalında ləyaqətli insanın faciəsi

Bizlərin Aşura məktəbindən, Kərbəladan, orada baş verənlərdən götürə biləcəyi ən mühüm dərs ondan ibarətdir ki, bu dünyanın, bu dünya bataqlığının içərisində, bu dünya məşğuliyyətlərinin içərisində büdrəmələr, günahlar, yanlışlıqlar, səhvlər - ola bilən məsələlərdir. Düşünməyək ki, bunlar bizdən yan keçər. Kərbəlada öyrəndiklərimizdən biri - cənab Hürr və onun tövbəsidir. Tarix göstərir ki, Hürr kimi ləyaqətli, şərafətli bir insan büdrəyə-büdrəyə, qəflətə düşə-düşə hətta Yezidin (lən) xidmətçisinə çevrilməyə qədər gedib çıxır. Canını fəda verməyə hazır olduğu Peyğəmbərinin (s) Əhli-beytinə (ə) qarşı müəyyən işlər görür, onların Kərbəlada yollarını kəsir. Əlbəttə ki, sonra xətasını başa düşür, tövbə edir, İmamın (ə) yolunda şəhid olmaq dərəcəsinədək yüksəlir. Amma bunun müqəddiməsi - qəflətdən doğan kəbirə günah durumu olur. Burada biz cənab Hürrün timsalında ləyaqətli insanın qəflət ucbatından hansı duruma düşə bilməsi faciəsi ilə tanış oluruq.

Buradan belə bir nəticə çıxır ki, günah, xəta, yanlışlıq, büdrəmə və tövbə yalnızca dindən kənar olan insanlara aid deyil. Eyni zamanda xəta və büdrəmələr yalnızca böyük günahlardan ibarət deyil. Təəssüflər olsun ki, toplumda günah və günahlardan tövbə etmək deyildikdə, yalnızca böyük günahlar və onlardan tövbə nəzərdə tutulur. Bir insan tövbə etmək istəyəndə, onun haqqında pis fikirlər yaranır ki, görəsən, həmin insan hansı böyük günahlara yol verib ki, onlardan tövbə etmək istəyir. Yəni tövbə məfhumunun toplumumuzda mənası bir qədər deformasiyaya uğrayıb. Tövbə guya ki, yalnız böyük günahlara aid məsələ kimi qəbul edilir bəzən. Halbuki insanın qəflətdə olması, xəta törətməsi, qəlb qırması, yalan, qeybət kimi günahlar törətməsi elə əsl tövbəlik mövzulardır ki, əksər insanlar gün ərzində bu və ya bu kimi mənfiliklərə dəfələrlə yol verir.

### İman əhlindən tələb olunan tövbə - xalis tövbədir

Qurani-Kərim məntiqi də öyrədir ki, tövbə iman əhlinə, möminlərə aid olan məsələdir. Qurani-Kərimin "Təhrim" surəsinin 8-ci ayəsində buyurulur: **"Ey iman gətirənlər, Allaha - xalis bir tövbə edin, ümid olunur ki, Rəbbiniz sizin günahlarınızı örtsün və sizi (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlərə və bağlara daxil etsin".** Ayəyə diqqət edəndə görürük ki, Rəbbimiz "ey iman gətirənlər!" müraciəti ilə mübarək buyuruşuna başlayır. Ümumi insanlara, bəşəriyyətə, günahkarlara, yolunu azmışlara müraciət etmir. Bir qədər də xüsusiləşdirir, konkretləşdirir. Yəni iman əhlinə çağırış edir ki, onlar özlərini bu məsələdən kənarda görməsinlər. Birbaşa olaraq möminlərə, iman əhlinə müraciət edir Rəbbimiz. Ayədə iman əhlinə səmimi qəlbdən və xalis niyyətlə tövbə etmək çağırışı edilir.

Ayənin özündən birbaşa olaraq aydınlaşır ki, burada möminlərə müraciət olunur. Deməli tövbəlik durum möminlərə də, möminələrə də, iman əhlinə də aid olunur. Möminlər günahdan, xətadan amanda deyillər, sığortalanmayıblar. Möminlərin belə bir arxayınlıqları olmamalıdır. Eyni zamanda görürük ki, möminlərdən elə-belə tövbə istənilmir. İman əhlindən tələb olunan tövbə - səmimi qəlbdən və xalis niyyətlə olan tövbədir.

Bəzən görürük ki, toplumumuzda da tövbə deyildikdə, yalnızca bir cümlə və ya bir ifadəni iqrar etmək nəzərdə tutulur. Elə zənn olunur ki, bunu sadəcə dilə gətirməklə insan tövbə etmiş olur. Yalnız dillə deyilən tövbə, Qurani-Kərim məntiqinin çatdırdığı tövbə deyil. Allah dərgahında qəbul oluna biləcək tövbə - xalis və səmimi tövbədir. Allah dərgahına hər qayıdış qəbul olunmur. Yalnız xalis və səmimi qayıdış qəbul olunur. Cənab Hürr səmimi və xalis peşman oldu. Odur ki, ən aşağı yerdən gəlib, ən ali dərəcəyədək ucaldı. Xalis, səmimi tövbə insanı bu qədər ucaldar.

### Xalis tövbənin əsas xüsusiyyəti - geriyədönməzlikdir

Bəzi təfsiri çalarlarda qeyd olunur ki, xalis tövbə o tövbəyə deyilir ki, səmimi, xalis olsun və onun göstəricisi geriyədönməzlik olsun. Xalis tövbə edənin gərək əzmi olsun ki, bir də həmin günahı etməsin. Çox mücərrəd məsələlərə getməyək. Haram məclislərdə iştirak, haram musiqi dinləmək, qeybət, yalan və s. - ən pis günahlardan biridir. Bir insan bugünki zamanda, məkanda, vəziyyət və şəraitdə hər addımda haram mühitin, haram musiqinin şahidi olur. Yalnız küçədə, bayırda deyil, evinin içərisində, qonşusunda, qohumunda da içki məclisi, gina məclisi görür, haram şeylər eşidir. İnsan anlasa ki, bunlarda iştirak haramdır və bundan çəkinmək lazımdır, xalis şəkildə tövbə etmək istəsə, gərək geriyədönməz halda tövbə etməyə əzmi olsun. Özünü əmin etsin ki, bir də bu günahlara qayıtmayacaq. Bu gün insanın həyatında haram səhnələr, haram mənzərələrlə rastlaşmaq ən adi məsələyə çevrilib. Hər yerdən bu günahlar insanın üstünə gəlir. Artıq haramlardan qorunmaq sadə məsələ deyil. Gərək insanın proqramı olsun, Allahla rabitəsi olsun, mənəvi immuniteti olsun. Necə ki, bir namaz qılan donuz ətindən çəkinir, elə də gərək ğinadan, haram səhnələrə baxmaqdan, naməhrəmlə əl verib görüşməkdən çəkinsin.

### İmam Hüseyn (ə) şəhid oldu ki, bizlər əsl İslamı tanıyaq və yaşayaq

Kərbəla, Aşura, İmam Hüseynin (ə) qiyamı, İmam Huseynin (ə) Mədinədən çıxıb Məkkəyə getməsi, Məkkədən çıxıb Kufəyə getməsi, Kufə yolunda Kərbəlada düşərgə salması, övladlarını bu yolda şəhid verməsi, ailəsinin əsir düşməsinə razı olması buna görə idi ki, İslam kamil din olaraq qorunub saxlansın, bizlərə kamil şəkildə gəlib çatsın. İmam Hüseyn (ə) şəhid oldu ki, bizlər üçün haramlar adiləşməsin. Əba Əbdillah (ə) bütün bu fədakarlıqları edib ki, bizlər haramlara adi hal kimi baxmayaq. Əba Əbdillah (ə) bizlərin doğru-dürüst mövcud olması üçün şəhid olub. O Həzrətin (ə) qarşısında dayanan məlunların bir çoxu zahirdə namaz da qılırdılar, oruc da tuturdular, Quran da oxuyurdular. Amma onların bir mühüm fərqi var idi. İmam Hüseyni (ə) şəhid etmək istəyənlər, İslamı qırmızı xətləri ilə yaşatmırdılar və yaşatmaq istəmirdilər. Nəinki yaşatmırdılar, İslamın həqiqətlərini məhv edib, qondarma bir psevdo-din bərqərar etmək istəyirdilər. Onlar hər şeyi bir-birinə qarışdırmaq istəyirdilər. Allahın haram buyruqlarına bir don geyindirib, halala çevirmək istəyirdilər.

Təəssüf ki, günümüzdə də hər şeyi bir-birinə qarışdıranlar az deyil. İnsanlar rahat şəkildə sələmə girir. İnsan namaz qılır, oruc tutur, cürbəcür ibadətlər edir, amma rüşvət, yalan, qeybət onun üçün vərdiş halına gəlir. Artıq çoxlarının həyatı fasiq-füsəqanın həyatı ilə yalnız namaz qılmaqla fərqlənir. O namaz da nə zamanda, nə formada qılınır?!

### Daxilə nəzər salmaq

Toplumda iman əhli adına iddialı olanların hidayət yoluna qədəm qoymamış, namaz qılmayan insanlarla fərqi itib getməkdədir. Binamaz insanların arasında da dərs oxumağa tənbəllik edənlər çoxluq təşkil edir, möminlərin də bir çoxunda dərs oxumağa meyllilik olmur. Namaz qılmayan insanların da bir çoxunda ailənin əsas gündəmi, mövzusu - maddiyyatdır, mənəvi məsələlər ikinci, üçüncü plana keçib, bir çox mömin ailələrinin də mərkəzi mövzusu maddiyyatdır. Sadəcə namaz qılmayan insanlarla iman əhlinin arasında açıq şəkildə maddi kateqoriyaların üstünlüyü bəyan edilir, iman əhlindən sayılanlarda isə bu prioritet bəzi məsələlərlə pərdələnir.

Əba Əbdillahın (ə) əsas missiyası - əmr-be-məruf (yaxşılıqlara dəvət) və nəhy-əz-münkər (pisliklərdən çəkindirmə) idi. İmam Hüseyn (ə) ali dəyərlərin yaşanması üçün qiyam etmişdi, hərəkatına başlamışdı. Onun yolunu getmək istəyənlər üçün də bu hədəflər ən mühüm, ən əsas olmalıdır. Yaxşıları ilk öncə insan özü yaşamalı, sonra insanları yaxşılara dəvət etməli, pis işlərdən çəkindirməlidir. Günümüzdə ən böyük bütlərdən, stereotiplərdən, yanlış təsəvvürlərdən biri budur ki, insan namaza gəlir, dindar olur, həccə gedirsə, Məhərrəm-Səfər əyyamını yaşadırsa, artıq elə bilir ki, kamil insan vəziyyətinə tam yetişib. Arxayınlaşır, öz üzərində işləmir. Halbuki bütün bunların hamısı Allaha bəndə olmaq üçün müqəddimədir. Bunlar hamısı onun üçündür ki, bizlər Allah bəndəsi olduğumuzu xatırlayaq.

Bizlər daxillərimizə nəzər salmalıyıq. Gərək daima baxaq görək ki, vəziyyətimiz necədir, durumumuz nə haldadır? Gərək özümüzü mütəmadi olaraq hesaba çəkək. O qədər qəflətdə ola bilərik ki, büdrədiyimizin fərqində belə olmarıq. Elə bilərik ki, ən kamil ibadət edən elə özümüzük.

İnsan öz durumunu gərək aşağılarla deyil, yuxarılarla, mənəviyyat nümunələri ilə müqayisə etsin. Biz gərək Həzrət Əliyə (ə), onun səhabəsi Kumeylə (r.ə) baxaq və sonra özümüzə baxaq. Həzrət Əli (ə) Kumeylə (r.ə) öyrətdiyi dua ilə əslində bizlərə öyrədir ki, Allahla necə ünsiyyət, rabitə quraq.

### İçimizdə olan Kərbəla

Kərbəla məktəbinin ən böyük missiyası - insanları qəflətdən oyatmaqdır. Qəflətdə olan insan nəinki kiçik xətalarının, heç böyük günahlarının da bəzən fərqinə varmaz. Kərbəla məktəbini, Aşura qəhrəmanlarını dərk edən insanın həyatında, gündəlik yaşayışında başqa kəsləri özünə qəhrəman etməsi mümkün deyil. Ağıllı yanaşma budur ki, insan gərək Kərbəlaya nəzər salsın və düşünsün ki, orada İmama (ə) qarşı tərəfdə olanların yol verilən büdrəmələrə kiçik səviyyədə öz həyatında nə qədər yol verir. Nə qədər içərimizdə Hüseynin (ə) qarşısını kəsmişik? Nə qədər içərimizdəki Rüqəyyələri (s.ə) susuz qoymuşuq? Nə qədər içərimizdəki Əbülfəzlləri (ə) qolsuz qoymuşuq? Nə qədər daxilimizdəki Zeynəbləri (s.ə) məyus etmişik?

Bizim içərimiz - bir Kərbəladır. Yaşadığımız mühit də çox ağırdır. Mənfi olan hər şey də artıq təsisatlaşıb. Şeytan (lən) hər şeyi elə maksimal dərəcədə qurub ki, bizim heç özümüzlə məşğul olmağa heyimiz də qalmasın.

Bu dünya bizi özümüzdən nə qədər alıb?! Biz özümüzdən başqa hər kəsə və hər şeyə aid olmağa başlamışıq. Özümüzlə məşğul olmağa zaman, vaxt, şərait bəzən tapmırıq. Gərək bu durumu dəyişək. Gərək qəflətdən oyanaq, özümüzlə məşğul olaq.

**Allahım, bizlərə səmimi qəlbdən və xalis niyyətli tövbə nəsib et!**

**Allahım, aqibətlərimizi cənab Hürr (r.ə) kimi qərar ver!**

**Allahım, bizlərin qəflətdən oyanmağını nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 303 (6012) 12 dekabr 2014

# Gəncədə icra başçısı və onun müavini döyüldü

## Elmar Vəliyevin "sağ əli"nin satdığı torpaqlarda "evyıxma əməliyyatı" qanla nəticələndi; kəlbəcərli köçkünlər mülklərini başlarına uçurmaq istəyənləri əzişdirdilər

**Dekabrın 10-da Gəncənin Avtozavod qəsəbəsi adlanan ərazisində Nizami Rayon İcra Hakimiyyətinin əməkdaşları qanunsuz tikililəri sökərkən insident baş verib. Həmin qəsəbədə məskunlaşmış Kəlbəcər rayonundan olan köçkünlər etiraz əlaməti olaraq Gəncə-Göygöl avtomobil yolunu bağlamağa cəhd göstəriblər. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, cəhdin qarşısı alınarkən Gəncə Şəhər Baş Polis İdarəsinin 5 əməkdaşı, orada olan Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev və müavini xəsarət alıb. Gəncə Şəhər Baş Polis İdarəsinə məxsus 2 ədəd xidməti avtomobilin şüşələri sındırılıb. Xəsarət alanlar Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdiriliblər. Onlardan 2 nəfərin vəziyyəti qənaətbəxşdir, digərlərinə isə ilkin tibbi yardım göstərildikdən sonra buraxılıblar.**

"Hazırda başçının səhhəti yaxşıdır. O, həkim nəzarəti altındadır. Yaxın günlərdə xəstəxanadan təxliyə olunacaq". Bu sözləri "Qafqazinfo"ya açıqlamasında Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Naqif Həmzəyev deyib. N. Həmzəyev bildirib ki, hadisədən bir gün əvvəl Gəncənin icra başçısı Elmar Vəliyevin iştirakı ilə həmin qəsəbədə Kəlbəcər sakinləri ilə görüş keçirilib: "Sakinlər görüşdən və həmin qəsəbədə infrastruktur layihələrinin həyata keçiriləcəyindən razı qalmışdılar. Belə ki, qəsəbədə xüsusi küçələr müəyyənləşdirilməlidir. Bir müddət əvvəl orada bir qrup dəllal tərəfindən qanunsuz olaraq torpaqlar satılıb. Sakinlər də necə gəldi orada ev tikiblər. Görüş zamanı da bildirildi ki, kim uzun müddət orada yaşayırsa, biz onların evlərini sənədlə təmin edəcəyik. Kim yaşamırsa, torpaqları öz hesabına özəlləşdiribsə, həmin insanlara da şərait yaradacağıq ki, problemləri olmasın. Amma gecəylə bir qrup dəllal planlaşdırıb ki, burada şəhər kim işləməyə gəlsə, onları daşlayaq. Hətta gecəylə onlar bir neçə nəfəri də bilərəkdən xəsarət yetirərək xəstəxanaya yerləşdiriblər. Burada məqsədləri o olub ki, guya onlar icra hakimiyyəti və polis tərəfindən döyülüblər. Biz də həmin insanların iç üzünü bildik. Halbuki həmin dəllallara dövlət tərəfindən torpaq verilib. Bu ərazini isə sənədsiz, qeyri-qanuni hasara alıblar. Bir qrup dəllal Nizami rayonunun icra başçısına və polis əməkdaşlarına, bir neçə iş adamına xəsarət yetiriblər. Onlar barəsində cinayət işi açılıb və artıq həbs ediliblər. Bu şəxslərin hər biri dövlət qulluqçusuna qarşı belə mövqe nümayiş etdirdiyinə və əhalini təxribata çəkdiyinə görə cəzasını alacaq".



İcra başçısı Nizami Hacıyev Elmar Vəliyevin "sağ əli" olan Məharət Mustafayevin güdazına gedib

**"Yeni Müsavat"a daxil olan məlumata görə, həmin torpaq Kəlbəcər köçkünlərinə Nizami rayonunun sabiq icra başçısı Məharət Mustafayevin "xeyir-dua"sı ilə verilib:** "Bu şəxsi prezident sentyabr ayında işdən qovub. O, torpaqları necə istəyirdi elə də satırdı. Bu adam Elmar Vəliyevin kadrı olub. Onu özü ilə Yevlaxdan gətirmişdi. Əgər torpaqlar qanunsuz verilibsə, vaxtında Elmar Vəliyevin bundan xəbər tutmaması təəccüblüdür. Məharət Mustafayev onun razılığı olmayanda çörək də yemirdi".

**Qaynağımız deyib ki, köçkünlər həmin sahələrdə özlərinə ev tikməklə yanaşı əkin-biçinlə də məşğul olublar:** "Elmar Vəliyev köçkünlərə 10-dan çox çoxmərtəbəli bina tikdirib. Onları həmin evlərə köçürdüb, torpaqları öz sərəncamına qaytarmaq istəyir. Kəlbəcərlilər isə həmin binalardakı evlərə köçmək istəmirlər. Çünki binalar Gəncə Alüminium Zavodunun yaxınlığında tikilib və orada istehsal zamanı əmələ gələn zəhərli toz-duman birbaşa binaların üstünə gedir. Dağlıq zonada, təmiz havada yaşamağa öyrəşən kəlbəcərlilər hazırda yaşadıqları yerlərdə əkin-biçinlə məşğul olur, mal-qara saxlayırlar. Çoxmərtəbəli binalarda bu məşğuliyyətlərə şərait yoxdur. Torpaqları da onlara satıblar. Yəni köçkün kimi məskunlaşdıqları dövlət müəssisələrinin uçuq-sökük yataqxanalarından çıxıb həmin torpaqları pul verib almaqla özlərinə ev tikiblər. Elmar Vəliyev bir gün əvvəldən ora gəlib və əraziyə baxıb gedib. Camaata da deyiblər ki, sabahdan yeni binalara köçürsüz. Köçməyənlərin evləri başına uçurulacaq".

**Qaynağımız deyib ki, dekabrın 10-da səhər tezdən əraziyə ağır texnika, polis qüvvələri və icra hakimiyyətinin nümayəndələri gəlib. Kəlbəcər köçkünlərinin 1-2-nin evinin söküntüsü qarşıdurmalara yol açıb:** "Gülüstan qəsəbəsində məskunlaşan 300-dən çox sakin etiraz üçün əraziyə toplaşandan sonra ora əlavə olaraq 200-ə qədər polis cəlb olunub. Polislər sakinləri ərazidən uzaqlaşdırmaq istədikdə isə qarşıdurma yaranıb. Eta-tist.com-un məlumatına görə, qarşıdurma nəticəsində 22 yaşlı Ceyhun Arif oğlu Hacıyev ağır xəsarət alıb və 3 saylı xəstəxanaya yerləşdirilib. Sonradan isə o, xəstəxanadan naməlum istiqamətə aparılıb. Qarşıdurma zamanı döyülən Nizami Rayon İcra Hakimiyyətinin başçısı Nizami Hacıyev, onun müavini və xəsarət alan polis əməkdaşları Gəncə Mərkəzi Xəstəxanasına aparılıblar. İcra başçısının başına tikiş qoyulub. N.Hacıyevin Bakıdakı xəstəxanalardan birinə gətirilməsi haqda da məlumat var".

Gülüstan qəsəbəsində baş vermiş insidentlə bağlı Gəncə Şəhər Prokurorluğu tərəfindən araşdırmalara başlanıb. Faktla bağlı Cinayət Məcəlləsinin 315-ci maddəsi (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) ilə cinayət işi başlanıb.

Son məlumata görə, Gəncədə sakinlər tərəfindən xəsarət yetirilən Nizami rayonunun icra başçısı Nizami Hacıyev klinikaya yerləşdirilib.

❑ **E.HÜSEYNOV**

# Bakıda qadın gəlinini və nəvəsini öldürdü

## Tükürpədən cinayəti törədən Şərqiyyə Hüseynovanın psixoloji problemləri olub

**Dekabrın 10-da gecə Bakının Suraxanı rayonunda dəhşətli qətl hadisəsi baş verib. Qayınana gəlinini və 6 aylıq nəvəsini öldürüb. Anspress-in xəbərinə görə, tükürpədən cinayət rayonun Qum adasındakı Zeytun bağları adlanan ərazidə kirayədə yaşayan 40 yaşlı Şərqiyyə Hüseynovaya məxsus evdə baş verib. Ş. Hüseynova birlikdə yaşadığı gəlini 20 yaşlı Elnarə Nəcəfova ilə mübahisə edib. Mübahisə fərdi yaşayış evinin həyətində olub. Qadın yerdən götürdüyü daş parçası ilə gəlini Elnarənin başına bir neçə zərbə vurub. Ağır kəllə-beyin travması alan Elnarə Nəcəfova huşsuz vəziyyətdə yerə yıxılıb və yerindəcə ölüb.**




Bundan sonra hadisəni törədən Ş. Hüseynova evə girərək nəvəsi, yəni Elnarə Nəcəfovanın 6 aylıq qızı Emilyanı boğaraq amansızlıqla qətlə yetirib. Hadisə barədə qonşular xəbər tutan kimi dərhal ərazi üzrə 30-cu polis bölməsinə xəbər veriblər. Hadisəni törətməkdə şübhəli bilinən Ş. Hüseynova saxlanılıb. Dindirmə zamanı qadın hadisəni mübahisə zamanı törətdiyini bildirib.

Qeyd edək ki, qadın hadisəni törədərkən oğlu işdə olub. Suraxanı Rayon Prokurorluğundan verilən məlumata görə, saxlanılan qadının psixoloji problemləri var. Fakta görə onun barəsində xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla, iki və ya daha çox şəxsi öldürmə maddəsi ilə cinayət işi başlanıb. Araşdırmalar davam edir.

Qonşuları isə bildiriblər ki, həmin ailə bir ildir orada kirayədə qalırmış. Qadının oğlu Elvar Hüseynovun çox mehriban və istiqanlı biri olduğu deyilir. Lakin Ş. Hüseynovanın psixi problemləri olduğu üçün gəlini onu çölə tək buraxmırmış.

Dekabrın 11-də oğlu işdə olan zaman Şərqiyyə Hüseynova həyətdə gəlini 1994-cü il təvəllüdlü Elnarə Nəcəfova ilə mübahisə edib. Mübahisə zamanı qaynana gəlininə hücum edərək onu itələyib. Daha sonra yerdən daş parçası götürərək gəlinin gicgahından bir neçə zərbə vurub.

İşi araşdıran Suraxanı Rayon Prokurorluğunun müstəntiqi Kamran Sadıqov bildirib ki, saxlanılan Ş. Hüseynova dindirmə zamanı hadisəni mübahisə zamanı törətdiyini etiraf edib.

Qeyd edək ki, onlar əslən gürcüstanlıdırlar. Qadın Gürcüstana qayıtmaq istəyirmiş. Lakin oğlu və gəlini onu buraxmırlarmış. Qadının sözlərinə görə, bu səbəbdən dəhşətli cinayəti törədib.

"Şərqiyyə Hüseynova ilkin dindirilmədə bildirib ki, Gürcüstana köçmək istəyirmiş. Gəlini və oğlu da qapını bağlayıb, onu çölə buraxmırlarmış", - deyə müstəntiq bildirib.

Ş.Hüseynovanın adının çəkilməsini istəməyən qohumu isə bildirib ki, son bir neçə ay idi ki, o, psixi problemləri olduğuna görə müalicə alırdı və dərmanlar atırdı. "İndiyədək bu ailədə heç vaxt söz-söhbət, narazılıq olmayıb. 1 ilə yaxın idi ki, Gürcüstandan gəlib burada kirayə qalırdılar. Oğlunun toyuna qədər Şərqiyyə Hüseynovanın səhhəti də normal idi. Lakin son bir neçə ayda Şərqiyyə Hüseynovanın səhhətində psixoloji problemlər yarandı. Buna görə o, müalicə alırdı, dərmanlar atırdı", - deyə o qeyd edib.

"Qadını bir neçə gün əvvəl həkimə də aparmışdılar. Tibbi aparatdan keçirmişdilər. Həkimlər qadında heç bir problem olmadığını demişdilər. Ancaq onun psixi problemləri var idi və buna görə müalicə olunurdu", - deyə qonşular bildiriblər.

Həmçinin həyat yoldaşını və körpəsini itirən Elvar Hüseynov da danışıb. O bildirib ki, qohumları ilə birlikdə Gürcüstana gedir. Onu da öyrəndik ki, Elvar Hüseynovun atası beynəlxalq ölkələrarası yükdaşımada sürücü işləyir. O, TIR sürür və hazırda Türkiyədədir. Daha sonra Elvar Hüseynov əlavə açıqlama verməkdən imtina edərək, danışacaq halda olmadığını bildirib.

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

N 303 (6012) 12 dekabr 2014

# Viski qoxulu parça hazırlandı

Şotlandiyadakı Heriot Vatt Universitetində viski qoxulu parça istehsal ediblər. Bu barədə ali təhsil müəssisəsinin rəsmi saytında qeyd olunub. "Harris Tweed" kompaniyası ilə ortaq hazırlanan parça Akva Alba - viski qoxusu verən element kimi qoxur. Universitetin meneceri Cim Mak Vi deyib ki, sözügedən ali təhsil müəssisəsi neçə ildir ki, "ağıllı toxuculuq"la məşğul olur. Qoxunun hazırlanması üçün mikrokapsul texnologiyasından istifadə olunub ki, bu da daha öncə yüksək uğur əldə edib.

Sözügedən parçanın harada və hansı məbləğə satılacağı hələlik açıqlanmayıb.






## Bu saatlarda mütləq yatın

Həkimlər xəstəliklə mübarizə aparmaq üçün saat 23:00-la 02:00 arasında yatmağı vacib sayır. Qrip virusunun ətrafı bürüdüyü bu günlərdə, mütəxəssislərdən tez-tez sağlam qidalanma və gigiyena qaydalarına diqqət yetirilməsi lazım olduğu barədə fikirlər eşidirik. Qriplə mübarizədə sağlam qidalanma və gigiyena qədər sağlam yuxu da son dərəcə əhəmiyyətli rol oynayır.

Ciddi və yorucu iş tempinə bir də yuxusuzluq və qrip epidemiyası əlavə olununca, bədən taqətdən düşür. Keyfiyyətli və sağlam yuxu xəstəliklərlə mübarizədə əhəmiyyətli rol oynayır. Yuxu əsnasında xüsusilə də qaranlıqda ifraz olunan melatonin hormonu bədənə çox fayda verir.

Melatonin ifraz olunan saatları qaçırmamaq lazımdır. Melatonin hormonu xüsusilə gecə 11-dən sonra ifraz olunmağa başlayır və saat 2-yə qədər davam edir. Səhərə doğru isə yavaş-yavaş azalır. Ona görə xüsusilə bu saatlardakı yuxunu qaçırmaq olmaz. Bu səbəblə yatdığınız yerin qaranlıq olması, gecə lampasından istifadə edilməməsi çox vacibdir. Ehtiyac duyulan yuxu saatı insandan-insana dəyişir. Kimi 8 saatlıq yuxuyla özünü gümrah hiss edər, kimi isə 6 saatlıq yuxu ilə kifayətlənər. Buna görə mütəxəssislər insanın orta hesabla 7 saat yatmasını məsləhət görür. 6 saatdan az yatan insanlarda ürək xəstəliklərinə daha çox rast gəlinir.

Gündüz yuxularının çox əhəmiyyəti yoxdur. Əhəmiyyətli və lazımlı olan gecə 11-dən sonra yatmaqdır. Ancaq sağlam və keyfiyyətli yuxu üçün qaranlıq mühit şərtdir. Televizora baxaraq yatmaq isə orqanizm üçün son dərəcə ziyandır.

# Saqqal üçün yeni il bəzəyi hazırlandı

Britaniyanın reklam agentliyi olan Grey London saqqal üçün yeni il bəzəyi hazırlayıb. Bu barədə lenta.ru saytı "The Daily Mail"ə istinadən xəbər verib. Firma saqqal üçün bəzək dəsti 14 şardan ibarətdir və 7 funt qiymətindədir. Agentliyin saytında qeyd olunub ki, kompaniya aksessuarların yerinə çatdırılması ilə məşğuldur və 11 ölkəyə onları çatdıra bilər. Bu ölkələrin sırasında ABŞ, Avstraliya və Yeni Zelandiya da var.

Yenilik çox ciddi rezonans və diqqət yaradıb və hazırda anbarlarda şarlar yekunlaşıb. Gözlənilir ki, şarların yeni hissəsi yaxın günlərdə satışa çıxarılacaq. Grey London agentliyinin işçisi olan Olli Dern bildirib ki, sözügedən bəzək amerikanlar, almanlar və fransızlar arasında çox populyardır. Yeri gəlmişkən, ən çox şar alan da Böyük Britaniya sakinləridir.

Kompaniyanın əldə etdiyi gəliri dəri xəstələrinin müalicəsi ilə məşğul olan Breadson firmasına köçürəcəyi gözlənilir.





## Xəstələri həkimlər xəstələndirir

Ümumdünya Səhiyyə Təşkilatı açıqlayıb ki, həkimlərin 40 faizi əl gigiyenasına diqqət etmir. İtaliya, Mali, Pakistan və Səudiyyə Ərəbistanın 43 xəstəxanasında aparılan araşdırma nəticəsində tibb bacılarının da 29 faizinin əl gigiyenasına əhəmiyyət vermədiyi üzə çıxıb. Dünyanin 168 ölkəsində həkim, tibb bacısı və digər tibb işçiləri arasında "Təmizlik təhlükəsizlikdir" şüarı ilə keçirilən kampaniya çərçivəsində onlara təmizliklə bağlı təlim verilir. ÜST həmçinin açıqlayıb ki, müalicə zamanı yoluxan xəstəliklərin çoxu səhiyyə işçilərinin xəstəyə toxunması ilə keçən mikroblardan qaynaqlanır. İnkişaf etmiş ölkələrdə hər 100 xəstədən 7-si, inkişaf etməkdə olan ölkələrdə isə hər 100 xəstədən 10-u bu mikrob ucbatından xəstələnir. Son illərdə bu sahədə aparılan təbliğat sayəsində isə əl gigiyenasına diqqət etmə faizi 51 faizdən 67 faizə qədər artıb.




QOÇ - Hiss olunur ki, bu gün ümumi gərginlik ovqatınıza hakim olacaq. Elə isə bütün gücünüzü toparlayıb neqativ hallara qarşı müqavimət göstərin. Enerjinizi boş yerə xərcləməyin.

BUĞA - Neçə gündən bəri verdiyimiz tövsiyələrə əməl etmisinizsə, təxminən saat 12-dən başlayaraq iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Özünüzə təzə geyim alın.

ƏKİZLƏR - Ulduzlar ovqatınızı yüksəltmək üçün əllərindən gələni edəcəklər. Amma heç olmasa, özünüz də buna azacıq cəhd etməlisiniz. İnsanlara qarşı gülərüz münasibət göstərin.

XƏRÇƏNG - Ətrafınızda olan xeyirxah insanların qədrini bilin. Onsuz da həyatda təkbaşına çox şeyə nail ola bilmirsiniz. Yersiz ittihamlara, dedi-qoduya əhəmiyyət verməklə səviyyənizi endirməyin.

ŞİR - Xurafatçıların "nəhs gün" adlandırdığı bu təqvimdə çoxdan görmədiyiniz dost və qohumlarınıza baş çəkin. Nahar ərəfəsində aldanma ehtimalınız olduğu üçün bir qədər tədbirli olun.

QIZ - Bu təqvimin mahiyyətini romantik məcraya yönəltməklə ümumi gərginliyinizi azalda bilərsiniz. Əks cinsin nümayəndələri ilə mehriban davranın. Özünüzü zəhərlənmədən gözləyin.

TƏRƏZİ - Fəaliyyət istiqamətində vaxtınızı çox itirməyin. Onsuz da nəzərdə tutulan nəticəni əldə edə bilməyəcəksiniz. Buraxdığınız səhvləri etiraf etməyi və bağışlamağı bacarmalısınız.

ƏQRƏB - Günün ümumi görüntüsü qarşıdurmalarla müşayiət olunacaq. Nə qədər çətin olsa da, əsəblərinizi cilovlamağa çalışın. Bunu bacarsanız, axşama yaxın ovqatınız yüksələ bilər.

OXATAN - "Nəhs gün" anlamına ciddi yanaşmayın. Əksinə, bu gün uğurlu məqamlar yaşayacaqsınız. Maddi çətinliyi özünüzə dərd etməyin. Axşam çoxdan görüşmədiyiniz yaxınlarınıza baş çəkin.

OĞLAQ - Bu gün yeganə probleminiz səhhətinizlə bağlı ola bilər. Odur ki, əsəbi situasiyalardan, daxili soyuqdəymədən qorunmalısınız. Qalan məsələlərdə isə ciddi probleminiz olmayacaq.

SUTÖKƏN - Dünyanı düzəltmək fikrindən vaz keçin. Özünüzü və ətrafınızdakıları ədalət müstəvisinə çəkə bilsəniz, bu da böyük işdir. Nəzərə alın ki, insanları inandırmaq qabiliyyətiniz aşağıdır.

BALIQLAR - Riskli işlərə, nəticəsinə əmin olmadığınız sövdələşmələrə girişməyin. Daha çox evdə, ailə üzvlərinizlə, dostlarınızla bir yerdə olmağa çalışın. Qonaq getmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xərçəng əleyhinə bakteriya tapıldı



Xərçəng xəstəliyinin qarşısını alan bakteriyanın tapılması tibb elmində geniş müzakirələrə səbəb olub.

"TİME" jurnalı siçan və itlər üzərində aparılan araşdırmanın uğurlu nəticəsi haqqında məlumat dərc edib. Bildirilir ki, oksigen qəbul etməyən Clostridium növlü bakteriya xərçəng şişini kiçildir və böyüməsinin qarşısını alır.

Siçanlarla aparılan araşdırmanı 16 itin üzərində bir daha sınaqdan keçiriblər. İtlərin bəzisində şiş yox olub, bir qrupunda isə 21 günün içində 30 faiz kiçilib. Bu təcrübə artıq insanlara da şamil edilir. 2 il ərzində 53 yaşlı bir qadının xərçəng şişi də inanılmaz dərəcədə əriyib.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565